

ELDAR ƏLİYEV

# SÖNMƏZ GÜNƏŞ

BEŞ CİLDDƏ

II

Az 2010
1507

**Eldar Əliyev**
**(Sərtqaya)**

88857

# SÖNMƏZ GÜNƏŞ

**Poema**

***Beş cilddə***

**II cild**

M.F.Ax... ...dına
Azərbay... Milli
Kitabxanası

**"Elm və təhsil"**
**Bakı – 2010**

ARXİV
89847

Ш6(2=Аз)+Т3(2А)-8

*Məsləhətçi:* **Nizami Cəfərov**
***filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi***

***Redaktor:*** **Rafiq Novruzov**
*filologiya elmləri doktoru, professor, AYB üzvü*

**Əliyev Eldar Paşa oğlu.**
**«Sönməz Günəş».** ***(poema). II cild.***
**Bakı, «Elm və təhsil» 2010, 216 səh.**

Poemada doğma Vətənə, müqəddəs yurd yerlərinə bağlılıq poetik duyum və səmimiyyətlə, ulu öndər Heydər Əliyevə olan inam və məhəbbət xüsusi poetik təsvir vasitələri ilə tərənnüm edilmişdir.

Müəllifin təsvir və tərənnüm etdiyi sahəyə bələdliyi əsərin qəhrəmanı olan dahi şəxsiyyətin obrazını parlaq şəkildə yarada bilməsindən daha aydın görünür.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$Ə\frac{4702000000}{N098-2010}$ qrifli nəşr

**© «Elm və təhsil », 2010**
**© Eldar Əliyev, 2010**

ARXIV



## PROLOQ

*Qədim Yunan əsatirində Hepakl öz gücünü torpaqdan aldığı kimi: — Heydər Əliyev də öz gücünü Azəpbaycan xalqından alır. Azərbaycanda xalq Heydər deyir, Heydər Xalq deyir.*

**Məmmədtağı Cəfərov**

Şair, yazar var ki,
düz sözdən qaçır,
Neynim? — Düz sözümdən
qaçımmı mən də?
İçimin alovu
qələmdən saçır.
Neynim? — kiridimmi
sinəm dinəndə?
Od-alov içində
yanan bu sinəm,
Qoymur ki, yazmadan
bir an keçinəm.
Qələm tapmayanda
yazıram qəlbə,
Deşir ürəyimi
söz qəlpə-qəlpə.
Tarixin gözünə
ilişmişəm mən,

Tarixin özünə
ilişmişəm mən,
Çox ağır bir işə
girişmişəm mən.
Sinəmi heç belə
gərməmişəm mən.
Tarix özü çəkir
məni özünə,
Baxmağa Heydərin
ulu gözünə.
Diqqət kəsilməyə
hər bir izinə,
Yazmağa həyatın
nə var, düzünə.
Bu məğrur insanın
ömür anları
Altun dəyərlidir,
qızılı xətlə.
Onun həyatının
bütün anları
Yazılıb tarixə
çox məharətlə.
O özü yazıbdı
öz tarixini —
Bir ömrə bərabər
hər bir ilini.
Bölüb fəsil-fəsil
yazmaq istəsən,
Bir ömür az olar,
tamam sərf etsən.





## UÇAN XƏYALLAR

**(monoloq)**

Sən xalqına yetən
tanrı payısan,
Xalqımın ən gerçək
haqqı-sayısan.
Xoşbəxt arzuların
ən şirini Sən!
Çəkə-çəkə xalqın
dərd-sərini Sən,
Tapdın ürəklərdə
öz yerini Sən,
Göstərdin cahana
dəyərini Sən!
Mənəvi sərvətim,
qolum, qanadım,
Ömrünə bağlıdır
arzum, muradım,
Baxıb İlhamından
alıram ilham,
Yaranır qəlbimdə
tükənməz inam.
Az qala ulduza
çevriləm, yanam,
Qalxam ulduzlarla
qoşa dayanam.
Sevinc ilhamından
qanad almışam,
Səmalarda süzən
qartal olmuşam.
Uçduqca uçuram
enə bilmirəm,

Qayıdıb özümə
dönə bilmirəm.
Qoynunda bir xırda
Günəş görürəm,
Sönməz arzun, adın
bir gənc görürəm,
Onda da xalqına
güvənc görürəm.
Adına, özünə
güvənc görürəm.
Adınla adına
yetişəcək O!
Bəlkə də bu günü
çox ötəcək O!
Dönüb ilhamından
doğan ilhama,
Əvəz olacaqdır
o da İlhama.
Yazıram, yazdıqca
coşur təbim də,
Sözlər ilhamımı
aşır qəlbimdə.
Gedir karvan kimi
bu dövran gedir,
Kimisi karvanla,
kimi yan gedir.
Həyat karvanında
tək qanan gedir,
Qanmaz o karvandan
hər an yan gedir!





## QƏLB EVİMDƏ VƏLVƏLƏ VAR

*Zəhmət də uludur, zəfər də ulu,*
*Eşidin qəlbimin qürur səsini!*
*Qəhrəman yurdumun qəhrəman oğlu*
*Yazdı qəhrəmanlıq salnaməsini.*

*NƏBİ XƏZRİ*

«Sönməz Günəş» poemamın
ilk cildini verdim çapa,
Ancaq təbim sönməz qaldı
heç yatmadı ipə, sapa.
Ürəyimin ağrısından
nə dincəldim, nə də yatdım.
Özümlə bir doğmaların
yuxusuna haram qatdım.
Düşüncələr axır, axır,
gözlərimdə şimşək çaxır.
Öz-özümdən utanıram,
sanki kimsə mənə baxır.
Sinəmlə bir cövlan edən
qaynar sözlər məni yaxır.
Sanki qeybdən tapşırılır,
yazmalısan əvvəl-axır.
Ürəyimdə söz kükrəyir,
düşüncəm onu ələyir.
Sanki sözlər cilalanıb,
söz camıma söz calanıb
Seçilibdi sətir-sətir,
bənd-bənd olub,

Hazırdır ki, çıxsın sətrə,
elə bir himə bənd olub.
Yol gedirəm — çıxır yola,
o da qalxar — qalxsam yala.
Nə yorulur, nə usanır,
yollar boyu təkrarlanır.
Günlərimi yaza-yaza
Yaşayıram ömrü təzə.
Gələcəyin haray səsi,
Sətirlərin zümzüməsi.
Köklənərək zilə, bəmə
Qənim olub düşüncəmə.
Çəkir məni keçmişimə,
Bu dünyanın gərdişinə.
Danışıram öz sözümlə,
Sözlər qaynayır düzümlə.
Ayrılmışam el-elatdan,
Uzaq düşüb doğma, yaddan.
Həyatımı sətirlərdə yaşayıram,
Günlərimi sətirlərdə yaşayıram,
Ürəyimdə dəfinələr daşıyıram,
Mən sözləri əzizləyir, oxşayıram.
Bu mənəmmi?
Düşünürəm hərdən özüm:
Niyə axı,
gəzir sətirlərdə gözüm?
Qəlb evimdə vəlvələ var,
Narahatdır dağım, düzüm.
Mən sözlərin yağışına
necə dözüm?!





## 10 MAY — HEYDƏR GÜNƏŞİNİN DÖĞUM GÜNÜNDƏ

*Adın olub ümidi milyon-milyon insanın,*
*Sənsən birlik nəğməsi vahid Azərbaycanın.*
***Maqsud Hacıyev***

Heydər Günəşinin
doğum günündə,
Aləm nura dönür
gözüm önündə.
Arzum qanadlanıb
göyə yüksəlir!
Sevinc nəğməsiylə
salama gəlir.
Göylərə baş çəkir
düşüncələrim,
Qaynayır qəlbimdə
şən nəğmələrim.
Bu gün təbrik edir
hər kəs hər kəsi!
Düşmənin içində
qalıb nəfəsi.
Bu həvəsdən coşan
təbimlə birgə
Sönməz sətirlərdən
qururam cərgə.
Sətirlərdə qaçan
ilham pərimin,
Əlindən aldığım
ləl — gövhərimin,

Özünü düzürəm
mən sətirlərə.
Heydər həyatından
keçən illərə,
Baxdıqca ürəyim
vüqarla dolur,
Hər ili bir ömür,
bir tarix olur.
Yaddaşlar yaşayır
ərməğan kimi,
Sönməz Günəş adlı
qəhrəman kimi.
Zirvədən-zirvəyə
çatdığı yolda
Özü də ucalıb,
zirvələşibdi!
Qoyub düşmənləri
O, qeylü-qalda
Ən uca zirvətək
tarixləşibdi!
Ömrünün hər ili
bir kitab, dastan,
Sonuna çatmazsan,
durmadan yazsan.
Qəlbimin özündə
qurubdu yurdu,
Tarixə çevrilən
illəri yordu.
Özü yorulmadı,
öz gücündədi,





Adı ürəyimin
hər küncündədi!
Hamısı kitabdır —
xəzinə, dəyər,
Xalq üçün ən yüksək
mənəvi dəyər.
Yazıb kitab-kitab
toplasam əgər,
Uca bir dağ olub
göylərə dəyər!
Həyat bir məktəbdir,
zülmü imtahan,
Keçib alnıaçıq
hər bir sınaqdan.
Xalq üçün yanmağı
kef-damaq bilib,
Xalqıyla ağlayıb,
xalqıyla gülüb,
Dolub ürəklərə
nurtək süzülüb,
Qızıl hərflərlə
adı yazılıb.
Silinməz tarixdə
silinməz olub,
Tükənməz gücüylə
öyünməz olub!
Hər zaman xalqıyla
öyünüb Heydər!
Xalqın ürəyində
döyünüb Heydər!

Xəzərdən güc alıb,
Xəzərtək coşub,
Qəlbi qaynarlıqda
Xəzəri aşıb.
Dünyanın özüylə
O ayaqlaşıb,
Dünyanın özütək
O dünyalaşıb?
Xalqımın adıtək
O dühalaşıb.
Hələ demək olmaz
O rahatlaşıb,
Önündə görməli
işləri çoxdu,
Onun bərabəri,
əvəzi yoxdu.
Ölməz qəhrəmandı,
neştəri sözdü,
Dostu milyonlarla,
düşməni azdı.
Gücü öz xalqına
güvəndən alıb,
Hələ qocalmayıb,
O cavan qalıb.
Ömrün səksəninə
çataçatda da,
Ağsaçlı cavandır,
vüqarlı ata!
Bu müqəddəs günü
Azərbaycanın





Çəkib nəzərini
bütün cahanın.
Sevinib şadlanan
xalqım, özüm də
Sanki səmadayıq,
göyün üzündə.
Tanrıdan sağlamlıq
diləyək deyə,
Arzu qanadında
qalxmışıq göyə.
Uçduqca uçuruq,
enə bilmirik,
Qayıdıb geriyə
dönə bilmirik,
Gələcəyə doğru
uçur gəmimiz,
Göstərdiyi yolla
öz Günəşimiz!
Bu müqəddəs yolla
biz yorulmadan
Müqəddəs günlərə
qovuşacağıq!
Bu müqəddəs gündən
biz yorulmadan
Gələn nəsillərə
danışacağıq!
Aya, ulduzlara
qədər qalxacaq,
Göydə ildırımtək
hər an çaxacaq,

Heydər Günəşinin
özüylə bahəm,
Keçib bu günündə
illəri müdam,
Bu günün özünə
qayıdacağıq!
Bu günlərə yeni
yol salacağıq!
Bu günün özündən
yol alacağıq!
Hər zaman Heydərlə
bir olacağıq!

***





## DÜNYAYA YENİLİK GƏTİRƏCƏYƏM

Göylər göylüyündə,
Yer yerliyində,
Mənsə xəyalların
dərinliyində.
Yer də mənimkidir,
göylər də mənim,
Yerdən göyə çatır
Düşüncələrim.
Günəşdir həmdəmim,
Aydır həmdəmim.
Yazsam, ulduzlarcan
olar bəndlərim,
Günəşə həsr olub
çünki əsərim.
Dərin xəyallarım,
axşam, səhərim,
Qələmim olubdu
ilham kəhərim.
Daşır söz xəzinəm,
ləlim, gövhərim.
Günəşin özündən
alıb ilhamı,
«Sönməz Günəş» imi,
şah poemamı,
Yazmağa israrlı
keçir günlərim.
Yazmadığım anım
işgəncəm mənim,

Sözlərin şirini,
acıları var.
Qəlbimin yanğısı,
ağrıları var.
Ömür — fəsil-fəsil,
Gün — fəsil-fəsil.
Yazsam, yaşayacaq,
O, nəsil-nəsil.
İtməz o ağrılar
ötsə də əsr,
İllərdir səbrini,
həddini kəsir.
Qəlbim boşalmağa
yaman tələsir.
Şeir də qəlbimdə,
söz də qəlbimdə,
Bahar da qəlbimdə,
yay da qəlbimdə,
Günəş də qəlbimdə,
Ay da qəlbimdə.
Qəlbimin boranı,
qarı, buzu var,
Tükənməz söhbəti,
şirin sözü var,
İlləri yoracaq
dağı, düzü var,
Sönməz Günəşimin
itməz izi var...
Dosta işıqlı yol,
düşmənə qala,
Neçə əsrləri
salacaq yola.





Sözlər müsəlləh bir
əsgər kimidir,
Məntiqi, mənası
zərgər kimidir.
Haqqa, ədalətə
sipər kimidir,
Köksümdə sanki bir
təpər kimidir.
Belimdə sehirli
kəmər kimidir.
Qəlbimdən dilimə
nəmər kimidir.
Bu hünər mənəmi
Verilib, - deyə,
Sanki sığmayıram
mən yerə, göyə.
Çay axır sinəmdən
sonu bənd olur,
Dağ qalxır sinəmdən
sonu bənd olur.
İldırımlar çaxır,
bəndlər doğulur,
Şimşəklər özü də
bəndlərə doiur.
Bitməz yağış yağır,
tut göylərə qalx,
Günəşin gözüylə
gələcəyə bax.
Ucal, ey millətim,
qalx özlüyünə,
İnamla bu yolun
ən düzlüyünə,

88857

Heydər addımıyla
etdiyin yürüş,
Xoşbəxt gələcəklə
olacaq görüş.
Mən də yaza-yaza
bu xoş həyatdan
Hər an məmnun olum
aldığım daddan.
Ömrü sətirlərdə
yaşayan əsgər,
Xalqımın adını
daşıyan əsgər,
Müqəddəs bir cəbhə
sayıb bu yolu,
Hansı ki, Sarbandır
Heydərtək Ulu!
Buludları aşıb,
Aya, Günəşə
Çatan düşüncəmdən
alaraq nəşə,
Səhifə-səhifə
sətir, bəndləri
Yazıb ötə-ötə
sinəbəndləri,
Müqəddəs bir ada
yetişəcəyəm.
Qəlbimin özüylə
Ötüşəcəyəm.
Bütün çalarların
arayıb, arıb,
Qəlbimin hər küncün,
bucağın yarıb,





Ənginliyə çatan
sətirlər qurub,
Sözləri-sözlərə
qatıb, yoğurub
Cild-cild kitabları
bitirəcəyəm,
Dünyaya yenilik
gətirəcəyəm!!

* * *

## TARİXİN ÖZÜNDƏ MÖCÜZƏLƏR VAR

*Tanrıdan çatıb sənə şöhrəti-şan, Heydər ata!*
*Bunu təsdiq eləyir küllü-cahan, Heydər ata!*

**Fəxrəddin Əlizi**

Tarix çox qeyd edib
möcüzələri,
Tarixin özündə
möcüzələr var.
Tanrı özü qurub
axşam-səhəri,
Orda işləyənlər,
dincələnlər var.
Ay da icazəsiz
gəzmir göyləri,
Tanrının özündən
icazəsi var.
Günəş şüasıyla
isidir yeri,
Onun da Tanrıya
xoş gəlməsi var.
Tanrı yaratdığı
buludlar varsa,
Göydə çən qurmağın
nə mənası var?!
Toplasa gücünü
bütün insanlar,





Görəsən, heç yeri
fırlatmaq olar?
Yer özü fırlanır
günəş başına,
Günəşin özündən
nur almaq üçün.
Çiçəklər də açır
günəş doğanda
Onun şüasından
həb almaq üçün.
Günəş nur saçmasa,
açılmaz güllər,
Oxumaz bağlarda
sona bülbüllər.
Ay da dolanır ki,
günəş başına,
Nümunə götürsün
qızlar, gəlinlər.
Günəşin nuruyla
canlanır həyat,
Günəşə borcludur
bütün Kainat...
Günəşcən nurludur
bəşəri övlad,
Ona da borcludur,
xalqı, el, elat...
Dahidir, dühadır
tarixə isbat!
Dağlar daş oynadır,
zaman əridir,

Yerlə göy birləşib
bir kirkirədir*,
İnsanı torpağa
qatır, üyüdür.
İllərin özüylə
uyuyan dağlar
İnsan vüqarına
bir nümunədir.
Heydər vüqarına
baxınca gördüm,
Önündə dağların
özü heç nədir.
Onun xəyalına
dalınca gördüm,
Sanki xəyal deyil,
O, önümdədir.
Hər zaman, hər yerdə
O, mənimlədir.
Elə bil rəssamam,
şair deyiləm,
Qəlbdəki sözlərin
şəklin çəkirəm.
Elə bil bənnayam,
şair deyiləm,
Xalq və Heydər adlı
bir yurd tikirəm.
Sanki mən yazmıram,
heykəl qururam,

* *Kirkirə - dən üyüdən ibtidai alət*





Qranit sözləri
mən yoğururam.
Ulu Tanrının bir
elçisi kimi
Heydər Günəşinin
məğrur başına
Xalqı dolanmağa
mən çağırıram!
Çünki O, Günəşdir
yurdumda mənim,
Onun qürurunda
ruhum, bədənim
Xalqına gərəkli
şəfalar görür.
Xalqına bağlılıq,
vəfa var — görür.
Sönməz həyat kimi,
təmiz ad kimi,
Saxladım ömründə
mən diqqətimi.
Bu ömür özü də
bir möcüzədi.
Xalqıma gərəkli
bir nümunədi,
Hər zaman, hər zaman
O, mənimlədi,

Xəyalımda deyil,
ürəyimdədi.
Gələcəyə gözəl bir
yol çəkibdi,
Başqa yol seçməyin
nə mənası var?!
Onu düşünməsəm,
düşüncəm itər,
Duyğularım tamam
məni tərk edər,
Bəlkə həyatım da
sonuna yetər,
Xəzinəmin özü
qəlbimdən itər,
Əsərim, həyatım
qalar yarımçıq,
Dünyadan köçərəm
gözləri açıq.
Torpaq qəbul etməz,
Tanrı əfv etməz,
Dünyanın torpağı
gözümü örtməz.
Onunçün toplayıb
dözümümü mən,
Nəzarətçi qoyub
bir gözümü mən,
Hesabat alıram
özüm-özümdən.
Yurduma, xalqıma
borcu vermədən,





Həyatdan getməyin
nə mənası var?
Axı ölümün də
şərəflisi var.
Həyatın mənası
yaşamaqdısa,
Şərəfli ölüm var! —
Ondan da uca.

***

## SABAHINI GÖRƏN SABAHIM

*Vicdanı günəş, qəlbi geniş, ruhu böyükdür,*
*Andıyla, inancıyla, oduyla Atatürkdür!*

***Rəfiq Zəka Xəndan***

Övlad gələcəkdir,
övlad sabahdır,
Onu anlamamaq
böyük günahdır.
İlk oğluma mən
ad verdim — Səbuhi,
Dedim ki, qoy olsun
ömrün sabahı!
Sabah gözlərimdə
qaynadı, daşdı,
Böyüdü qırğıtək,
qol-qanad açdı.
Bir gün evə dönüb
nahar zamanı,
Yamanca pərişan
gördüm anamı.
Qapını üzümə
o, açar-açmaz —
«Gəl gör nə edibdi
oğlun yaramaz».
Anamın təşvişi
məni çaşdırdı,
Qəlbimdə elə bil
od alışdırdı.





Yüyürdüm irəli,
tez çatım deyə,
Özüm heyran qaldım
bu mənzərəyə.
Xalçanın üstündə
oturub körpə,
Ətrafda kağızlar
var tikə-tikə.
Qovluqdan şəkillər
götürüb tək-tək,
Verir bacısına o
dörd bölərək,
Balaca bacısı —
qızım Vüsalə
Elə ki, onları
götürür ələ,
Balaca tikələr
eyləyib atır,
Körpə dünyasının
sevinci artır.
Anamın dəhşəti,
gördüyüm məqam
Ayırdı bir anlıq
məni dünyadan.
Elə bil dünyanı
bölür körpələr,
Sanki gələcəyi
bilir körpələr.

Bir şaqqanaq çəkib
güldüm ucadan,
Bir öpüş də aldım
qardaş-bacıdan,
Soruşdum:
«Bu nə kağızlardı
cırıb atırsız,
Niyə ev-eşiyi
qarışdırırsız?»
Dolaba söykənmiş
rəsmləri görcək,
Ana təşvişini
anladım gerçək.
Qovluqda şəkillər
tamam cırılmış,
İkisi seçilib
kənarda qalmış.
Körpə dünyasıyla
körpə balalar,
Gözümdə az qala
dünyalaşdılar.
Gələcəyi görən
gözlərim mənim,
İnamım, düşüncəm,
axşam, səhərim.
Böyüyüb gözümdə
əməlləriylə,
Açdılar qəlbimi
öz əlləriylə.
Qaldırdım əlimdə
onları göyə,





Sağlam gələcəyə düz
baxım deyə.
Dünya gözlərimdə
qaynadı, daşdı,
Arzum ümmanlara
qol-qanad açdı,
Siyasi büroya
üzv, namizədlər,
Rəsmləri olmuşdu
kağız tikələr.
Oğlum iki şəkli
götürüb ələ,
Söylədi cırmışam
mən bilə-bilə.
Onlar bizə düşmən,
xalqa düşməndir,
Rəsmlərin qovluqda
saxlamaq nədir?
Mən dörd yerə böldüm,
bacım on altı,
Çünki çox dönükdür
onların zatı!..
Göstərərək mənə
Heydərin şəklin! —
«Budur! Xalqın oğlu! —
qeyrətin çəkin! »
Körpə qeyrətinə
dondum bircə an,
Düşüncəm ayırdı
məni dünyadan.

Yenidən doğuldum
sanki anadan.
Sordum ikincini
körpə balamdan,
Bu rəsmdə olan
Andropovdu,
Oğlum o rəsmi də
qarşıma tutdu.
Bu Heydər babanı
çox istəyirdi,
Nə olsun ki, əslən
rus idi — dedi.
Bu səhnə məni də
çaşdırdı yaman,
Körpə yaddaşlara
dolmuşdu hardan?
Məktəb yaşına da
çatmayan körpə,
Gör nələr düşünür,
nə deyir mənə.
Tez dostum Tofiqə
açdım telefon,
«Qardaş, tez gəl bizə
sən dayanmadan».
Anamsa dincəlmir,
sanki əsirdi,
Təşvişi səbrimi
tamam kəsirdi.
O dəhşətli keçmiş,
o **repressiya,**





Qaytarmış əzabın
sanki anaya.
Tələsik yır-yığış
etmək istəyir,
“Tez ol yığışdıraq,
gizlədək” - deyir.
Nə məni eşidir,
nə sakitləşir.
Körpə sevinclərsə
hey aşıb-daşır,
Məmnunluq yaşayır
çılğın körpələr.
Nənə qəlbindəsə
ahlar, nalələr.
Sevincim qəmimə
qarışır bir an.
Qəlblərdə ağrı var
köhnə dağlardan.
Necə məlhəm olum
ana qəlbinə?
Acıdım ömrümün
mən bu dəminə.
Düşüncəm özümə
kəsildi cəllad.
Bircə an Tanrıdan
umaraq imdad,
Qaranlıq bir səhnə,
həyat yaşadım,
Sanki əsrlərin
yükün daşıdım.

Xudaya, mən kiməm,
mən kiməm axı?
Göylərə baş çəkir
anamın ahı,
Onun ürəyini
oxuyuram mən!
Oxuduqca yanıb,
yaxılıram mən.
Ana gözlərində
giləlenir yaş,
Sanki ürəyimə
süzülür birbaş.
Qəlbim özü yanır
bu iztirabdan,
Bağrım parçalanır,
sanki olur qan.
Dostum Tofiq bir an
tez çatmasaydı,
Ürəyim az qala
çatlayasıydı.
Tofiqin səsindən
lap çaşdı anam,
Sanki ürəyində
qırıldı inam.
Bir anda odlandı,
dağ oldu sinəm,
Amansız bir ağrı
keçirdi mədəm.
Tofiqlə bərabər
çox böyük səylə,





Anamın qəlbini
biz aldıq ələ.
«Ay ana, körpələr
düzgün ediblər,
Bütün rəsmləri
çırıb töküblər.
Heydər yoxsa əgər
politbüroda,
Heç gərək deyillər
bizə onlar da.
Azadlığa gedir
yolumuz daha,
Bizə lazım ancaq
Heydərtək Düha.
Körpələr də görür
bu həqiqəti,
Sakitləş, narahat
olma sən qəti.
Bu adi bir körpə
dünyası deyil,
İlahi qüvvə var,
onu yəqin bil.
Körpə qəlbinə də
eyləyib əyan,
Biz də etməliyik
dünyaya bəyan.
Keçdi o zamanlar,
qaldı arxada,
Əsla keçmişləri
gətirmə yada,

Qoru nəvələri,
sev, sağlam böyüt.
Bilsin el-oba da,
götürsün öyüd.
Böyük gələcəkdir
nəvən Səbuhi,
Çox parlaq olacaq
onun sabahı.
O, da olacaqdır
bəlkə bir dahi?!
Versin qismətini
özü — İlahi!»





## KÖRPƏLƏR BÖYÜDÜ, MƏN KÖRPƏLƏŞDİM

Körpələr böyüdü
nəzərlərimdə,
Özüm körpələşdim,
öz nəzərimdə.
Az qala qəlbimi
boğa hıçqırıq,
İçimdə ağladım
mən qırıq-qırıq.
Qayıtdım keçmişə
döndüm özüm də,
Körpəliyim özü
bitdi gözümdə.
Yaxşı ki, tez çatdım
cavanlığa mən,
Özümə mat qaldım
bir anlığa mən.
Uçmaq istəyirəm
zirvələrə mən,
Ötən axşamlara,
səhərlərə mən.
Tarixi tarixdən
ayırmaq üçün,
Tarixi geriyə
qaytarmaq üçün,
Özümü tarixdən
qurtarmaq üçün.

Tarixi tarixdən
qurtarmaq üçün,
Meydanlarda qaldı
gözüm, nəzərim.
Hər an yollarını
gəzdi gözlərim,
Onun izlərini
gəzdi gözlərim.
Beləcə ötüşdü
axşam, səhərim,
Düşüncəmdən nələr
ötüb keçmədi,
Hansı daşqınların,
seli keçmədi.
Solğun cöhrələrlə
yaşayır hamı,
Elə bil sönübdü
həyat ilhamı.
Körpə övladları,
ata, anamı,
Həmişə pərişan,
pərişan gördüm.
Ulu millətimi —
Ulu xalqımı
Həmişə pərişan,
çalışan gördüm.
Bütün insanları
küncdə, bücaqda,





Ondan pıçıltıyla
danışan gördüm.
İlhamı, təbləri
coşanları mən
Ona gizli-gizli
söz qoşan gördüm.
Nəğmə qoşan gördüm,
söz qoşan gördüm,
Mənim həyat nəğməm —
Sönməz Günəşim.
Qəlbimin özündə
canlanır ancaq,
Gözümün önündə
canlanır ancaq,
Qəlbimdə ümidlər
qalanır ancaq.
O yenə ucalıb,
yenə qalxacaq.
Ötən fəsilləri,
ili sayacaq,
Parlaq şüasını
elə yayacaq,
O Sönməz Günəşdir,
sönməz qalacaq.
Şöhrət çələngitək
Taleyimizdə
O dönüb yenə də
parlayacaqdır.

Xalqı xoşbəxtliyə
haylayacaqdır,
Adını dünyaya
O yayacaqdır.
O, xalqın, millətin
alın yazısı,
Müqəddəs istəyi,
sönməz arzusu.
Sönməyən Günəşdir,
O, əbədidir!
Yenə qayıtmalı,
O dönməlidir!

***

Meydanları tutmuş
insan axını,
Hamı bilmək istər
öz sabahını.
Xalqın düşməniylə
hesablaşmağa,
Onu yönəldənlə
hesablaşmağa.
Mərd oğul axtarır
önündə millət,
Yaşadır qəlbində,
gözündə millət.
Meydanları tutan
sonsuz axında
Bir ana da vardı
bir az yaxında.





Əlində portret
tutmuş o ana,
Onu çevirirdi
o yan, bu yana.
Yorğunluq çökmüşdü
yanaqlarına,
Nur, işıq çökmüşdü
yanaqlarına.
Heydər portreti
gəzdirən ana,
Onu göstərərək
sağı, soluna
Nəsə pıçıldayır,
nəsə deyirdi,
Hirsindən dodağın
o çeynəyirdi.
İzdihamı yarıb
çatdım anaya,
Sanki imdad kimi
yetdim anaya.
Mənim marağımı
hiss edən ana,
Açdı ürəyini
o yana-yana.
«Ay oğul, budur bax
Qibləgahımız,
Onsuz viran qalar,
vallah, taxtımız.

Ana mikrafona
yetmək istəyir,
O, kimdənsə imdad,
kömək istəyir.
O, Allahdan imdad,
kömək istəyir,
O, Heydərdən imdad,
kömək istəyir.
O, bunu xalqına
demək istəyir,
O, xalqını xoşbəxt
görmək istəyir.
Meydanı gəzdikcə
hər addımbaşı
Elə bil açırdın
sirli farmaşı
Hər addımda şəkil
gətirən varmış,
İnsan qəlblərində
insan yaşarmış.
Müqəddəs həyatın
davamı varmış,
Onun ürəklərdə
ünvanı varmış.
Bir ana bətnində
yaranan insan
Milyon ürəklərdə
qərar tutarmış.





Gör belə insanlar
nə bəxtiyarmış.
Qəhərdən gözlərim
o an yaşarmış.
Xatirəmdə qalan
o günləri mən
Yaşaya-yaşaya
yazdım yenidən.

***

Meydanlar hey dolur,
hərəkat artır,
Çıxışlar dalınca
hərarət artır.
Xalq cəbhəsi adı
altda kölgələr,
Köbələktək sanki
yerdən bitdilər,
Özlərini meydanlara
Dürtdülər.
Bu milləti, bu Xalqı
Aldatdılar,
Görünməmiş müsibət
yaratdılar,
Gör nə qədər torpaqları
satdılar.
Kəlbəcəri, Şüşanı
oynatdılar,
Xocalının axırına
çatdılar.
Düşmənlərə dəstək
verən zəlillər

Yaratdılar ordu
kimi əlillər.
Təəssüf ki
biganəlik edirlər,
Sanki bundan
tamam xəbərsizdilər.
Bu ki tarix, bu ki
qan yaddaşıdır,
Bəlkə deyək: hamısı
düşmən işidir?
Bəlkə deyək: hansı
düşmən işidir?
Əgər yoxsa xalq
içində düşməni,
Hanı birlik, heyran
qoya dünyanı?
Şöhrətimiz gəzə
bütün cahanı.
Bəsdir daha,
aralığı qatanlar,
Ayaq altdan
torpaqları satanlar,
Küçələri,
meydanları sulayan,
Aralıqda min cür
quyruq bulayan
Küçələri,
meydanları tərk etsin,
Bu mürdəşir
oyunları tərk etsin.





Başda baş lazımdır,
ayaqda ayaq,
İmkan vermə yanlış
düşə baş, ayaq.
Gəlin, gəlin,
özümüzü qınayaq,
Gəlin, gəlin,
özümüzü sınayaq,
Vaxtımıza,
anımıza qıymayaq,
Əziz, şirin
canımıza qıymayaq,
Azərbaycan —
canımızdır, qanımız,
Səhv edərik,
ağrıyar vicdanımız.
Nə cana, nə də
vicdana qıymayaq,
Xalqımızı
bəlalara salmayaq.

***

## GÖYƏR SƏTİRLƏRİM, GÖYƏR DANIŞIM

Göyər, sətirlərim,
göyər danışım,
Dönüm çıraq olum,
yanım, alışım.
Bir ömrün
tükənməz cığırlarında,
Qəlbimdən
silinməz uğurlarında
Əlçatmaz zirvəyə
çatdım, ağrıdım,
Onun kölgəsində
batdım, ağrıdım.
Oyan, ey düşüncəm,
al məni məndən,
Sönməz ağrı qalxıb
yenə sinəmdən.
Qəlbimdə söz bitib,
biçilməlidi,
Bir bulaq qaynayır,
içilməlidi.
Söz-sözün içindən
seçilməlidi.
Sonsuz zəmi kimi
göyərən sözlər
Qızıl tərəziylə
ölçülməlidi.





Qəlbimdə dağ boyda
dolan kitablar,
Qat-qat vərəqlərə
düzülməlidi.
Qəlbin yağışında
yuyunan sözlər
Sonsuz sətirlərə
səpilməlidi.
Yuyunub bənd adlı don
geyən sözlər
Bənd-bənd kitablara
yazılmalıdı.
Oyan, ey düşüncəm,
vərəqlərə düş,
Ürəyimdən qopub
ürəklərə düş!
Əsən küləklərlə,
yellərlə öpüş,
Söz donunu geyin,
ellərlə öpüş.
Oyan, dodağımla,
dilimlə öpüş.
Müsəlləh əsgərtək
meydanlara düş,
Hərbinə dözdüyün
düşmənlə vuruş,
Ucal, zirvəyə qalx,
bəsdi bu eniş.
Tarixdə yazarlar
istehkam qurub,

Qayıt, sən tarixin
özüylə vuruş!
Qaytar tarixini,
qaytar tarixdən!
Tarixin özünü
qurtar tarixdən!
Qayıt özlüyünə,
qayıt, Ulu yurd!
Qayıt bu günümə,
ey Dədə Qorqud!
Koroğlu da gəlsin,
əlində əmud!
Yığsın dəli-dəli
dəlilərini,
Kəssin vətənimdən
düşmən əlini.
Qoy düşmən üstünə
sürsün Qıratı,
Çağırsın bayrama
eli, elatı,
Çalınsın dağlarda
Çobanbayatı.
Oyan, ey düşüncəm,
qon sətirlərə,
Layiqli sözlər yaz
Ulu Heydərə!
Ömrü tarixlərlə
dolu Heydərə!
Yayılsın qəlblərə,
düşüncələrə.





Xalqım qələm çəksin
işgəncələrə.
Yayaq şöhrətini
uzaq ellərə,
Yayaq söhbətini
şirin dillərə.
Yaşa Heydər, İlham
və nəvə Heydər!
Gülləni düz vurdun
hədəfə, Heydər!
Xalqı azad etdin
hər dəfə, Heydər!
Düşmənə vermədin
girəvə, Heydər!
Sözləri sən düzdün
sədəfə, Heydər!
Mizrablı əlləri
sədəfə, Heydər!
Aşıqlar söz qoşdu,
nəğmə söylədi,
Eldarın da coşdu,
nəzmlə söylədi,
Şəninə sözləri
əzmlə söylədi.

Cəhdləri boş qaldı
düşmən kəslərin,
Oturtdun yerinə,
kəsdin səslərin.
Şirin kəlamların,
şirin sözlərin

Yayıldı sinəmə,
sətrə calandı,
Sətirlər yığıldı
bəndə qalandı.
Hər çıxışından bir
kitab yarandı,
Doldu qəlb evimə,
bir dağ yarandı,
Ha söksəm, nə itən,
nə qurtarandı.
Şəninə yazmaqdan
kitablar bitməz,
Aşıqlar əlindən
mizrablar itməz,
Xalqımın dilində
əzbərsən, Babam!
Xəzinə dolu ləl,
gövhərsən, Babam!
Özün də Ulusan,
Yolun da Ulu!
Bu böyük hünərli
yolunda Ulu —
Qızıl tarix yaşar
sənin ömründə!
Tarixin də uzun
olsun, ömrün də!
Şəninə söz qoşum
hər şad günündə,
Hər doğum günündə,
hər ad günündə.





Hər vaxt yeriyəsən
xalqın önündə!
Oyan, ey düşüncəm,
düş sətirlərə,
Sönməz nəğmə qoşum
Ulu Heydərə!
Yetiş, sətirlərim,
qoy səni dərim,
Qoy sərim bəndlərə,
kitaba sərim,
Dolan kitabları
Ona göndərim,
Onu sevən
dostlarına göndərim.

***

Xalqım səni dedi,
adına çatdı,
İlahinin özü
dadına çatdı.
Tanrıdan verilib
Sənə istedad,
Bütün yer üzündə
çıxarmısan ad.
Açıl, ey sabahım,
doğ, ey günəşim,
Yolunu gözləyir
Sönməz Günəşim!
Qalx, ey Dan ulduzum,
təbim, ilhamım,

Əlini gözləyir
Sönməz Günəşim!
Oyan, dur ayağa,
körpə Heydərim,
Yolunu izləyir
Sönməz Günəşim!
Oyan, ey düşüncəm,
gəz sətir-sətir,
Dünyaya sönməyən
yenilik gətir!
Şeir dünyamıza,
söz dünyamıza,
«Sönməz Günəş» adlı
şah əsər gətir!
Dayanma, sən onu
sonuna yetir,
Qəlbində daşıma,
onu yaz, bitir!





## QANLI YANVAR

*Var olun, hörmətli Prezident*
*Heydər Əlirza oğlu, Əjdər*
*Xanbabayevin xatirəsini*
*əbədiləşdirmək haqqında*
*sərəncam imzaladınız, var olun!*

***Məmməd Araz***

«Bakının dərdi var,
Bakı xəstədi,
Könül intizarda,
göz yol üstədi.
Soyuq divarlarda
güllə nişanı,
Didir, parçalayır
İnsan-insanı».
Olubdu darısqal
hər küçə, hər tin,
Döngələrdən keçmək
olduqca çətin.
Hər küçə tinində
bir bölük əsgər,
Aramsız havada
uçur güllələr.
Hər addımda ölüm,
hər addımda qan,
Sanki həyat bitib,
dəyişib dövran.

Xalq imdad gözləyir,
ancaq dərd gəlir,
Bir mərdin üstünə
min namərd gəlir.
Cəsarət, hünəri
itlər qapıbdı,
Meydandakı
şərəfsizlər qaçıbdı.
Meydanlarla birdir
əliyalınlar,
Tərk edib meydanı
gönüqalınlar.
Aldadıb, çıxarıb
küçələrlə bir,
"Gəlir, silah gəlir
və sursat gəlir" –
Deyə meydanlarda
sinə döyənlər,
Hər addım başında
özün öyənlər,
Var-dövlət önündə
boyun əyənlər,
Həqiqət önündə
gözün döyənlər,
Bu «savadlı»
savadsızlar,
Bu «abırlı»
abırsızlar,





Bu «qeyrətli»
qeyrətsizlər,
Bu «şərəfli»
şərəfsizlər
Oda atdı
Xalqı o gün,
Yada satdı
Xalqı o gün.
Girov qoyub xalq taleyin,
Öz canını güdənlərə,
Naşılara, gədələrə,
Verilən şirin vədlərə,
Əvəz kimi hər bir yerə,
Gözlərində qan gəzdirən,
Əsarət, zindan gəzdirən,
Qoşun gəlir, ordu gəlir,
Talamağa yurdu — gəlir.
Xalqın gözünü qırmağa,
Od vurmağa, yandırmağa.
Bürünüb hər cür yarağa,
Düşmən gəlir bu torpağa.
Onu bura çağıran var,
Bu xəmiri yoğuran var.
Göstərməyə səriştəsin,
Kəsdirməyə əriştəsin.
Yağıları çağıranlar,
Əli qanlı «qəhrəmanlar».
Bu xəmirə tökdüyü su,
Ölkəylə bir qan olubdu.

Xalq üstünə ələnib su,
Ürəklər qan-qan olubdu.
Gözü yaşlı qərənfillə
Hər küçə-meydan dolubdu.
On doqquzdan
iyirmiyə keçən yanvar,
Qan içində
yaddaşlara köçən yanvar,
Şəhid kimi
xiyabana köçən canlar,
Şəhidliyin
zirvəsinə ucalanlar,
Bu tarixə
qanlarıyla yazılanlar
Tarixlərə həkk etdilər
**«Qanlı Yanvar»!**
**20 Yanvar, «Qanlı Yanvar».**
Qan içində bu yurd, diyar.
Meydanlarda ağır tanklar,
Deşik-deşik hər daş, divar.
Gülləbaran, bir vurhavur,
Tırtıllardan qan sovrulur.
İnsan qəlbi çilik-çilik,
Yollar boyu sümük, ilik.
Bu tırtıllı əjdahalar,
Sümük gəmirir xarhaxar.
Beş insandan bir torba ət,
Torba-torba, səbət-səbət





Daşıyırlar bu köpəklər.
Amma doymur, elə heyhat,
Ulaşırlar bu köpəklər.
Qan gölündə üzür Bakı,
Xəzər yalan olub sanki.
O dənizə çaylar axır,
Bu dənizdən qanlar axır.
Ah-nalələr göyə qalxır.
Həyat donub nəzərlərdə,
Süngülərdə, nizələrdə,
İnsan qanı küçələrdə.
Meydandakı əsgərlərdə
İnsanlıqdan əlamət yox!
Ürəklərdə mərhəmət yox!
Bilinmir ki, əsgər kimdir,
Ağa kimdir, nökər kimdir,
Hamı burda didərgindir.
Doğma yurdda didərgindir!
Ölüm gəlib küçələrə,
Bu darısqal döngələrə,
Döngələrdə cəsədlərə
Yaxın düşən cəsəd olur.
Hər addımda bir qəsd olur.
Sanki cəsəd cəsəd doğur.
Hakim olmuş bu bəd uğur,
Qara-qara əjdahalar.
Məhəl qoymur küçə, bazar,
Hara gəldi soxulurlar,

Peyda olub, yox olurlar,
İnsanları yoğururlar.
Aram vermir uğultular,
Top səsləri, gurultular.
Birtərəfli döyüş gedir,
Xalq üstünə yürüş gedir.
Görünməmiş bir müsibət,
İnsanlarda ölüb taqət.
Qaranlıqda bütün şəhər,
Sanki qalıb yetim şəhər.
Alov saçır güllələrdən,
Ölüm saçır lülələrdən.
İşıq gələn hər nöqtəyə
atəşlər var.
Şəhər boyu bitmək bilməz
ixtişaş var!
Ürəklər qan-yaşda,
bitməz savaşda,
Əl-ayaq daşınır
ləyəndə, teştdə,
Əlamət qalmıyıb
bədəndə, başda.
Nə başı bədənə
calamaq olmur,
Nə bədəni başa
bələmək olmur.
Bir bədən yanında
beş baş görünür,





Beş bədən yanında
bir baş görünmür.
Bir qoca əlində
bir qol aparır,
Bir qarı özünü
didir, qoparır.
Evlərə soxulur
bu quduz itlər,
Qəlblərə çaxılır
bu quduz itlər.
Düşüncələr donub,
gözlər donubdu,
İnsan dillərində
sözlər donubdu.
Elə bil həyatın,
ömrün sonudu.
Elə bil həyatın,
ömrün sonudu.

***

«Bakının dərdi var,
Bakı xəstədi,
Könül intizarda,
göz yol üstədi.
Soyuq divarlarda
güllə nişanı,
Didir, parçalayır
insan-insanı»...
Hər addımda ölüm,
hər addımda qan,

Cəsədlərlə dolub
hər küçə, dalan.
Ağır tanklar gəzir
küçə, meydanda,
Görünməmiş bu dərd
Cümlə-cahanda.
Ürəklər sinədən
düşüb döyünür,
Özü öz qanında
düşüb yuyunur.
Tırtıllar altında
sümük üyünür,
Düşüb qan gölünə
gözlər döyünür.
Şəhid gözlərində
qığılcıma bax,
Sən mənim içimdə
hıçqırtıma bax!
Gözümdə quruyub
göz yaşlarım da,
İnan, damarımda
donub qanım da.
Göz yaşlarım sanki
qəlbimə axır,
Qəlbimin özünü
yandırıb yaxır.
Qurumuş gözlərdə
ildırım çaxır!
Od-alov içində
yanan Bakının





Alovu elə bil
göylərə qalxır.
Bu yanan alovu
söndürmək üçün
Göylər özü qan-yaş
ağlayır bu gün.
Göylərə yüksələn
ruhların ahı
Gözləyə bilməyir
sanki sabahı.
Göylər nərə çəkir,
ildırım çaxır,
Buludlar Bakının
üstünə axır,
İldırımlar birbaş
meydana çaxır,
Bakının üstünə
leysanlar axır.
Leysan yağışlardan
yaranır sellər,
Üzür bu sellərdə
tər qərənfillər,
Bu köksü yaralı,
bu əsmər güllər.
İnsan qəlblərini
dəlib tökürlər.
Qərənfil qədəmli
axır bu sellər,
Böyüyür bu seldən
dəniz və göllər.

Yuyur küçələri,
yuyur yolları,
Açır düyünlənmiş
çarpaz qolları.
Göylər hələ belə
ağlamamışdı,
Görünür heç belə
dağlanmamışdı.
Tırtılları yuyan,
yolları yuyan,
Bakıda görünməz
cəlladlıq duyan
Buludlar sallanıb
çökmüşdü yerə,
Leysan gətirmişdi
bütün şəhərə.
Hər daşı, torpağı
yumaq üçünmü?
Bu qırğına bir son
qoymaq üçünmü?
Tanrı köməyinə
yetməsə əgər,
Bəlkə dəniz qalxar,
ya Bakı çökər,
Ya ruhlar aləmi
yandırıb tökər,
Həyatın özünə
qaranlıq çökər.
Göylər göndərməsə
möcüzəsini,





Yəqin yer çəkərdi
öz nərəsini.
Ya vulkan püskürər,
ya dağ bitərdi,
Ya da Bakı özü
tamam itərdi.
Tanrı yetməsəydi
xalqın hayına,
Əlvida – deyərdi
öz kök, soyuna.
Milləti salanlar
bu qara günə
Son qoya bilərdi
toy-düyününə.
Düşdü tariximə
qara sətirlər,
Yordu düşüncəmi
gətir-götürlər.
Qırğının üstündən
keçsə də günlər,
Yenə qoyunlarda
qalıbdı əllər.
İmdad gözləməkdə
gözlər, nəzərlər,
Ölkəm yas içində,
matəmdə inlər.
Qara geyinibdi
qızlar, gəlinlər,
Qara geyinibdi
tər qərənfillər.

Saysız kəcavələr
meydanlarla bir,
Ölüb-itənlərin
sayı bilinmir.
Yol kəsən tanklar da
tamam sükutda,
Gələcəyə inam
yoxdu bu yurdda.
Düşmən də donubdu
bu möcüzədən,
Göydən yerə gələn
o moizədən.
Yanğından, tufandan,
daşqından, seldən,
Ya da bu köpəklər
düşübdü əldən.
Yoxsa, qan tutubdu
bunları bəlkə,
Ya qırğın onları
gətirib təngə?
Qızıl Ordusu da
bir olan xalqlar,
Orduyla üzbəüz
üzülən xalqlar,
Uca dağ başından
yıxılan xalqlar,
Bir həşərat kimi
baxılan xalqlar.
Qanı bahasına
bəlaya düşüb.





Faşistlər yeni bir
sevdaya düşüb,
Ürəklər üyüşüb,
əllər üyüşüb.
İnamsız ümiddən
sarsılıb insan,
Qəlbin sancısına
qısılıb insan.
Artıq yağış ötüb,
tufan dayanıb,
Günəş öz yerindən
yenə boylanıb,
Bütün diqqətini
diksə də yerə,
Dolğun şuaları
saçsa da yerə,
Ancaq yer isinmir,
isinə bilmir.
Nə də ki, günəşsiz
keçinə bilmir.
Daha bu günəşdə
isinə bilmir,
Günəşin özü də
heyrətdə, bəlkə,
Qərənfillər necə
qurublar cərgə.
Boynu buruq bu
çiçəklər
Bütün meydanlar,
küçələr,

Döngələrə
düzülüblər,
Qəm çəkməkdən
üzülüblər.
Yollar boyu
asfalt üstdə
Qucaqlaşıb
dəstə-dəstə,
Matəmdədir
qərənfillər,
Bütün ölkə,
şəhər, kəndlər.
İzdihamdan
küçə, meydan
Tamam dolub
axıracan.
Millət hamı
ayaq üstdə,
Küçələrdə
dəstə-dəstə.
Üzgün halda
çarəsizlər,
Bilmir nədir
bu qərəzlər.
Qızıl Ordu —
qızıl qanmış.
Qızıl ilə cilalanmış,
Çətir kimi qızıl adlı,
Şahmar ilantək cəlladlı.





Qaranlığa düşən kimi,
Qırıb çatır millətimi.
Hamı küsüb
günəşdən də,
Boylanmadı
bircə dəm də,
Bu od-alov nədir, – deyə.
Qığılcımı çatır göyə!
İmdad üçün —
Yaradandan,
Ruhlar ahı
çatıb göyə.
Oddan çıxan
tüstü duman,
Çəksələr də
çətir göyə.
Göyün yerə
hücumundan
Sonra kəsib
Bakıda qan.
Bu dəhşətli
möcüzədən
Qorxmuş kimi
yağı düşmən.
Son qoyaraq qırğınlara,
Əllərində torbalarla
Ov daşıyan itlər kimi
Tərk ediblər şəhərimi.
Gün doğana qədər onlar
Cəsədləri daşıyıblar,

Küçələri qaşıyıblar,
Cəlladları qaçırdıblar…
"Sülh məramlı" ordu gəlib,
Küçələrdə cərgələnib.
Matəm, yaslı
Ölkəmizdə,
Ağrı dolu
qəlbimiz də.
Kəcavələr göz
qaraldır,
Millət hamı
meydandadır.
İynə atsan
yerə düşməz,
Kimsə göz
yaşsız ötüşməz.
Yağı görsə
yanar qəlbi,
Xəzərin qan
olub qəlbi.
Sahil boyu
ha dolansan,
Qansız nöqtə
tapammazsan.
Mavi Xəzər
rəng alıbdı,
Qan rənginə
boyanıbdı.
Bu mavi göl,
qırmızı göl,
Olubdu qan —
qırmızı göl…





***

Ruhlar da qoşulub
huri-mələyə,
Düşmənlər qanını
içməsin deyə,
Xəzərin üstündə
qırıcı kimi,
Xəzəri coşdurur
yırtıcı kimi!
Bu sakit havada
kükrəyir Xəzər!
Özü-öz içindən
titrəyir Xəzər!
Xəzər boyu coşan
çılğın ləpələr,
Qızmış divə dönüb,
sanki şum əkir.
Xəzərə calanmış
şəhid qanını
Xəzərin dibinə,
torpağa çəkir.
Azadlıq meydanı
matəm içində,
Doğma Bakımızın
hər bir küncündə
Əsmər qərənfillər
qucaq açıbdı,
Hər damla qan düşən
yeri qucubdu.
Elə bil meydana
xalı düzülüb,

Qərənfillər sanki
candan üzülüb.
Kədər atəşində
yanıb köz olub.
Düşmənlərin murdar
üzü çözülüb,
O Qanlı Yanvara
qanla yazılıb.
Xiyabanda sonsuz
qəbir qazılıb
Şəhid tabutların
basdırmaq üçün.
Dərdlər aləmində
qalsa da üzgün,
Təkcə şəhidləri
basdırmır bu gün.
Əsrin əvvəlindən
bu günə gələn
«Böyük qardaş»ını
basdırır bu Xalq!
Gəl burda bir azca
xəyala dalaq!..
O böyük məhəbbət,
o böyük sevgi —
Xalqımın xalqlara
olan sevgisi.
Torpağa verilir,
daşa vurulur,
Geri qaytarılır,
başa vurulur.





Bu dərdə dözməyən
tər qərənfillər
Özləri matəmə
bələnibdilər.
Kəcavə karvanı
tərpənir birdən,
Elə bil buğ qalxır
qaynar təndirdən.
Acı göz yaşları
buxar-buxardı,
Qəm içində dünya
necə də dardı!
İnsanlar sıxılır
dar məngənədə,
Ürəklər də dözmür
daha sinədə.
Özü öz köksündən
qopmaq istəyir,
İmdad aləminə
çatmaq istəyir.
Dəniz də ağlayır,
sızlayır sanki,
O da bu karvanı
izləyir sanki,
Ağı deyənlərin
ağısınamı?
Xalqın düşməninə,
yağısınamı?
Bu durğun havada
kükrəyən dəniz!

Bütün varlığıyla
titrəyən dəniz
Ləpə-ləpə yola
çıxmaq istəyir,
Sanki xiyabana
qalxmaq istəyir!
Gəmilər fit çalır
matəm ahıtək,
Biz yerdə qoymayaq
bu ahı gərək!
Qayıdaq o günün
özünə dönək,
Xalqımın ağlayan
gözünə dönək.
O göz ki, ağlayar
xalq, el yolunda,
Gözlüyündə qalar,
lap kor olsa da.
Göz ki, ağlamasa
xalq, el yolunda,
Kor gözdür, görəmməz
lap saz olsa da.
Cansız qərənfillər,
o tər çiçəklər,
Qəm-qüssə içində
itər çiçəklər.
O gün ki, yol saldı
o, xiyabana,
Nə doğmaya babdı,
nə də ki, ya da.





O, elə yandı ki,
matəmdə o gün,
O andan dolaşır
həyatda küskün.
Nə bir toya gedir,
nə ad gününə,
Nə dost-aşnaların
bir təbrikinə.
O yasa batandır
o gülanələr,
Dərdlər aləmində
o divanələr.
Ancaq yasa gedir,
matəmə gedir,
Qara bayramlarda
sitəmə gedir.
Qəbirlər üstündə
bənd alır ancaq,
O yas yerlərinə
yollanır ancaq.
Ona ağla dedik,
heç kirimədi.
Elə ağlar qaldı,
söz çevirmədi.
Kiri deməyə də
dilimiz gəlmir,
Əzizləməyə də
əlimiz gəlmir.
Bəlkə əldən-ələ
gəzdiyindəndi,

Bəlkə eldən-elə
gəzdiyindəndi?
Qərənfil inciyib,
ya biz küsmüşük,
Ayaqlar altında
əzib tökmüşük.
Şəhid karvanının
getdiyi yola.
Bütün meydanlarda
verib qol-qola,
Xalıtək sərilib
yerə qərənfil!
Əsəb tək gərilib
elə qərənfil!
İndi meydanlardan
elə çəkilib,
Gələ bilmir heç vaxt
ələ qərənfil!
Yağı düşmən özü
buna qalıb mat,
Elə bil Bakıda
közərir həyat,
Yanmış qərənfillər
köz-köz olubdu.
İnsan ürəkləri
göz-göz olubdu,
Qocalar, körpələr
dördgöz olubdu.
Kəcavəni qoruyur
hər kəs, hamı,





Çiyinlərdə gedən
bu şəhid damı,
Qəlblərə od vurur,
üzür adamı.
Göz yaşı leysandı
Bakıda bu gün,
Görünməz dövrandı
Bakıda bu gün.
İnsan dənizində
bir karvan üzür,
İnsan ürəklərin
nə yaman üzür.
İnsan ayağıyla
üzən bu karvan,
Taleyini seçib
özünə sarban.
Kəcavə-kəcavə
düzülüb insan,
Bir qəlblə köçsə də
bu gün həyatdan,
Milyonlar qəlbindən
üzülüb insan.
O, son mənzilinə —
qəbirə gedir,
Ürəklərdə qalır,
əllərdə gedir.
Şəhidlik bu imiş,
Xudaya, demək?
Necə şərəfliymiş
şəhidtək ölmək!

Ölümü xəyalmış,
    həyatı gerçək.
Ürəklərdə qurub
    həyatı gerçək,
Kəcavə karvanı
    gözüm önündə!
Ancaq inanmıram,
    çünki qəlbimdə
Adbaad yaşayır
    bütün şəhidlər!
Ömrü dastan olmuş
    bu mərd igidlər!
Bu Qaçaq Nəbilər,
    bu Koroğlular!
Oğuz igidləri,
    dəli Domrullar!
Həcərlər, Nigarlar,
    igid qadınlar.
Gözəl Minayələr,
    Güləbatınlar.
Qan dolub gözünə
    qərənfillərin,
Dərd çıxıb üzünə
    bu tər güllərin.
Xiyabana gələn
    şəhid karvanı
Gözü yaşlı qoydu
    Azərbaycanı!
Torpaq öz qoynuna
    çəkdi onları,





Yenidən cücərsin,
    bitsinlər deyə!
Nə yaman soyuqmuş
    torpağın üzü,
Torpaqla qovrulsun
    yağının gözü.
Şəhid xiyabanı —
    bu böyük məzar,
Əbədi məşəl tək
    qaldı tarixdə,
**İyirmi Yanvarda** —
    qanlı tarixdə!
Şəhid ruhlarıyla
    dolu bu dağda,
Dənizə boylanan
    o ucalıqda.
Abidə quruldu,
    məşəl qoyuldu.
Tər çiçək düzüldü,
    əklil qoyuldu.
Şəhid dünyasında
    ocaq quruldu,
Şəhid ruhlarına
    olacaq oldu.
Bura müqəddəs Pir —
    Ocaq olacaq,
Məşəlli olacaq,
    sıcaq olacaq.
O, elə yazıldı
    qan yaddaşıma,

Olmazın dərd gəldi
Xalqın başına,
O ağrını ordan
silmək çətindir,
Dünyanın özüylə
bölmək çətindir.
Rusun qulpluğundan
qopmamazlıqdan,
Ölkədə xaosdan
və başsızlıqdan,
**Qanlı Yanvar** düşdü
tariximizə.
Yenidən qandırdı
tarixi bizə!
Biz borclu olurkən
öz elimizə,
Yadelli çağırdıq
öz evimizə.
Divan tutsun deyə
millətimizə.
Bu hansı qan idi,
bu hansı vicdan,
Hansı mürdəşirdən,
ya hansı bicdən,
Yurduma qan gəldi,
əsarət gəldi,
Yadellidən xalqa
nəzarət gəldi,
Xalqıma, elimə
bir zillət gəldi.





Bilməm bundan kimə
nə ləzzət gəldi?
Analar özünü
döyür meydanda,
Hamısı "Oğul!.. Oğul!.." —
deyir, meydanda.
Bizə arxa lazım,
bizə baş gərək!
Bizə başçı gərək,
arxadaş gərək!
Bir ana ləçəyin
göydə yelləyir,
Alın, ay naqislər,
götürün, deyir!
Kürsüdə şərəfsiz
oturmaq üçün
Qana çalxadınız
Xalqı siz bu gün!
Daha yer qalmadı,
ümid qalmadı.
Xalqın qarşısında
bir mərd olmadı,
Daha xalqda sizə
inam qalmadı,
Sizlərə yaraşan
ancaq çalmadı!

***

Xalq qanına susayanlar,
Taleyiylə oynayanlar,
Kremlə söykənənlər,
Xalqı qırğına çəkənlər
Başsız qoydu bu milləti,
Şübhə altda səadəti,
Çaşqınlıqdan doydu millət.
Doldu ürəklərə hiddət!
El atası! —
Ulu Heydər!
Xalqımın mərd
oğlu Heydər!
Həyatıyla riskə getdi,
Dünyalara bəyan etdi.
Nümayəndəliyə
getdi o gün,
Böyük oğlu
qoca Türkün!
İmperiyaya nifrətini,
Etirazı, hiddətini,
Bəyan etdi
məğrur Heydər!
Xalqa verdi
qürur Heydər!
Ölkəyləbir
əks-sədası,
Ulu xalqın
mərd arxası,
Etirazın ünvanına
ünvanladı.





O Kremli — Qarbaçovu
yamanladı!
Partbiletin atdı Heydər!
Xalqları oyatdı Heydər!
Azadlığa ilk addımın
o an atdı,
Xalqımızın dar gününə
o an çatdı.
Haqsızlığı görən Heydər
Elə orda verdi qərar
Ki, qayıtsın ölkəsinə,
Səsin qatsın el səsinə!
Həyan olmaq lazım idi.
O bilirdi: bu, çətindi,
Həyatına
sui-qəsd var!
İzləyirlər
Qarbaçovlar!
Çox təkidlər olunsa da,
dönməz oldu,
Xalq yolunda yana-yana
sönməz oldu.
Ana torpaq gözləyirdi
öz oğlunu,
O bilirdi çəkindirməz
hədə dolu söz
oğlunu!
Xalq gözü yolların
gözləyən oldu,
Yollar duman oldu,
çiskin, çən oldu.

O dumanda itən
Əjdərxan oldu,
Yurdunda qanına
o qəltan oldu.
Tapşırığı yaddan,
cəlladı xalqdan,
Qatıldı torpağa
uydu Əjdərxan!
Həyatın xalq üçün
qoydu Əjdərxan!
Xalqı o qurtardı
minbir bəladan.
Bu dərdə də dözdü
o məğrur İnsan!
Cinayəti çözdü
o məğrur İnsan!
Aldı ağuşuna
qatili zindan,
Kənarda qalmadı
haqlı cəzadan.
Tanrı köməyinə
arxalanaraq,
Kremldən vətənə
o yollanaraq,
Xalqla bir yaşadı
çətin anları.
Qoymadı axmağa
haqsız qanları!
İldırımlı yollar
yormadı onu,





Sıldırımlı yollar
yormadı onu,
O Xalqı izlədi,
Xalq isə onu.
Xalqın arzusuyla,
öz arzusunu
Daşıya-daşıya
əzab yaşadı,
Minbir hədə-qorxu,
təzad yaşadı!
Əzabdan, təzaddan
qorxmazlığıyla,
Xalqına bağlandı
məğrurluğuyla.
Ürəklərdə gəzdi,
dillərdə gəzdi,
Zəfərlər yaşadı,
illərə yazdı.
Xalqın tarixini
cildlərə yazdi,
yazdı ürəklərə,
qəlblərlə yazdı.
Çevriliş cəhdləri,
qanlar, qadalar,
Qardaş qırğınları,
bu **Qara Yanvar**,
Xəyallarda qalan
quberniyalar,
Xocalı qırğını,
bütün olanlar,

Hərəsi bir mövzu,
bir kitab, dastan,
Sonuna çatmazsan
bir əsr yazsan.
Çağdaş tarixləri
aradıqca mən,
Düşüncəm kəsilir
özümə düşmən.
Hərdən soruşuram
özüm-özümdən:
Mən niyə doğuldum
özümə düşmən?!
Millətimə düşmən,
özümə düşmən?!
Axı o da mənəm,
mən özüm də mən,
Özünə də düşmən,
mənə də düşmən,
Axı hardan çıxıb
mənim içimdən?
Qoy seçsin ulu xalq
mənləri səndən,
Qoy seçsin ulu xalq
sənləri məndən.
Ey, çıxıb meydana
mən-mən söyləyən,
Günəşə kor baxan,
onu görməyən,
Xalq səni də seçir,
məni də seçir,





Çalış sən özünü
süzgəcdən keçir.
Axı sən kölgəsən,
günəş deyilsən,
Axı kül olmusan,
atəş deyilsən.
Meydana çıxarsan,
gözə dolarsan,
Küləyə düşərsən,
göz-göz olarsan.
Acı tüstüsən sən,
şüa deyilsən,
Axı sən cadusan,
dua deyilsən!
Sən hansı dildənsən,
Oxuyammıram,
Sən hansı dindənsən,
tanıyammıram?!
Axı seçəmmərəm
meydanda səni,
Seçsəm, qınayacaq
cahan da məni.
Meydanlarda qoyun,
quzu seçilir,
İnsan ürəklərdə
seçilməlidir.
Meydana köçənlər
meydandan köçər,
Ürəyə köçəni
ürəklər seçər.

Siz, ey ürəklərdən
itkin düşmüşlər,
Bəlkə yadınızda
deyil keçmişlər?!
Bu gedişin sonu
«mat»a aparır,
Torpağa, ya
qazamata aparır.
Ürəklərin yolu
meydandan keçmir,
Küləklərin yolu
meydandan keçir.
Əlağacı olar
əldən sallanan,
Əllərdə qalmayın,
ellərlə qalın.
Yad əl tez buraxar
əlağacını,
Tanımaq gərəkdir
Xalqın Tacını.
Xalqın əlağacı
olmaq şərəfdir,
Dayağın dayağı
olmaq şərəfdir!
Ey, çıxıb meydana
mən-mən söyləyən,
Günəşə kor baxan,
onu görməyən,
Xalq səni də görür,
məni də görür!





«Ağılsız köpəklər
ulduza hürür».
İnsan hürüşünə
dözə bilmədim,
Yersiz yürüşünə
dözə bilmədim.
Kaş sənin dilində
yaza biləydim.
Ya da sən bu dili
bilə biləydin,
Oxuya biləydin,
qana biləydin,
Qayıdıb özünə
dönə biləydin,
Xalq üçün ürəkdən
yana biləydin!!

***

## ELƏ BİL GÜZGÜDÜ, AYNADI SÖZLƏR

*Var olsun mərd əsrim, qəhraman əsrim,*
*Əsl qəhramana qəhraman deyir!*

***NƏBİ XƏZRİ***

Elə bil güzgüdü,
aynadı sözlər,
Yenə qəlb evimdə
oynadı sözlər.
Sanki bulğur* kimi
qaynadı sözlər.
Gözəl gələcəyə
ayna — bu sözlər,
Mənə qeybdən gəlir
verməkçün xalqa,
Çağırmaqçün onu
düzlüyə, haqqa!
Haqqın dərgahından
qəlbimə qədər
Şərəfli yol gəlir
bu qaynar sözlər,
Hər söz arxasında
bir diyar sözlər,
Qəlbimdən dilimə
yadigar sözlər.
Olacaq elimə,
yadigar sözlər,
Öz ana dilimə

* . Bulğur- döyülmüş yarma





yadigar sözlər,
Edəcək Eldarı
bəxtiyar sözlər!
Edəcək Elləri
bəxtiyar sözlər!
Tanrıdan alıbdı
sərəncamını,
Bu şair Eldarın
təb, ilhamını,
Doydurmaqçün dolub
o söz camıma,
Odur dayaq bu gün
şah inamıma.
Gözəl gələcəyin
indiki dadı,
Xalqımın ən layiq
şirin övladı,
Xalqına verdiyi
şirin həyatı,
Xalqımın özünün
saf, təmiz adı.
Önündə borcumdan
çıxmaq üçün mən
Sazişə girmişəm
sanki sözlərnən!
Onu olduğunca
tərənnüm etmək,

Qurduğum məqsədin
sonuna yetmək,
Onun düz yolunu
dərin dərk etmək,
Ölüncə bu doğru
yol ilə getmək,
Xalqımın özünə
bəyan üçün mən
Sözü seçməliyəm
sözün içindən.
Sözlə cəngə çıxan
düşüncəm özü
Fərqinə varmadan
gecə, gündüzü
Yeni söz axtarar,
yeni söz arar,
Bu söz meydanında
başım ağarar.
Sanki pay veribdi
dağlar qarından,
Nişanə tək qəlbin
dövlət-varından.
Bu — xalqın yolunda
tapdığım dövlət,
Bu — xalqa, torpağa,
elə sədaqət,
Mərdliklə çatılan
ucalıq rəmzi,





Müdriklik yolunun
qabarıq rəmzi,
Bununla fəxr edir,
qürur duyuram!
Yoluyla getdiyim
qəhrəmanımtək
Mən də xalq yolunda
ömür qoyuram!
Bu yolda götür-qoy
etməyə dəyməz,
Heç başqa bir yol da
seçməyə dəyməz.
Bu yolda ağarıb
saçı Heydərin!
Xalq taleyi olub
tacı Heydərin!
Xalq da bilib qızıl
tacı Heydəri!
Dahilərin qızıl
tacı — Heydərin!
Şərəflidir ola bilsən
əlağacı Heydərin!
Bir dünyadır, bir
şərəfdir, bir addır,
O qurduğu ölkə
hər an abaddır!
Xalqa gərək, ancaq
xoşbəxt həyatdır!
Heydər quran həyat da
o həyatdır!!

***

Açıq-aşkar
olanları deməsək,
Əzablara birgə
sinə gərməsək,
Hər insana öz
qiymətin verməsək,
Xoşbəxtliyi öz
adıyla gəzməsək,
Ulu yolun
əzabına dözməsək,
Harda gəldi
ölçülməmiş söz desək,
Düzü qoyub
yalanlara yer versək,
Yalan olar bu
dünyanın ləzzəti,
Millət çəkər
görünməmiş zilləti!
Yurdumuza yenə
qada-qan gələr,
Cəsədlərlə dolu
olar döngələr.
Vallah, olar üzüqara yengələr,
Cəllad kimi meydan
qurar süngülər,
Unudular
heyratılar, cəngilər.
Yolumuza
çıxar ərəbzəngilər,
Unudarıq
azadlığın dadını,
Eşidərik





analar fəryadını.
Qorumaqçün xalqın
təmiz adını,
Heydər yolu — Ulu
yoldur yolumuz,
Birləşərək, bir olmaqdır
borcumuz,
Bu yol təkdir,
qalan yollar uğursuz,
Bu yoldadır
çörəyimiz, ruzumuz!!

## MÜQƏDDƏS TORPAĞA, VƏTƏNƏ DÖNÜŞ

*Bir oğul böyüdü Azərbaycanda,*
*O tayın, bu tayın oldu vüqarı.*
*Coşdu vətən eşqi damarlarında,*
*Özünə qayıtdı Odlar diyarı!*

***Firudin Şimşək***

Xalqın böyük oğlu
dönür Vətənə,
Qara qanlar dolub
düşmən qəlbinə.
Uğurlu yolunu
gözləyir xalqı,
Düşmən ürəklərdə
tükənməz ağrı.
Fikrindən döndərə
bilmədi kimsə,
O dözə bilməzdi
dönüb gəlməsə.
«Vətən sıxıntıda
qalıbsa əgər,
Dönüb köməyinə
gəlməmək olmaz,
Xalq azadlığa yol
alıbsa əgər,
Xalqın tale yükün
çəkməmək olmaz».





Bu böyük insanın
qəlbi və özü,
Yaxına qoymayıb
hər yersiz sözü,
Göstərib gücünü,
cəsarətini,
Dəyişə bilməyib
öz adətini.
Mərdliyin nümayiş
etdirdi yenə,
Döndü ana yurda,
doğma Vətənə.
Çıxdı pişvazına
doğma, dostları,
Xalqının çin oldu
şah arzuları.

***

Günəş doğdu
yurdumuza,
Dağ vüqarlı
oğlumuza
"Xoş gəlmisən"
söylədi xalq,
Şadlıq etdi
doğma, qıraq.
Heydər ömrü
varaq-varaq,
Tarix-tarix,
tarixləndi.

Tarix döndü,
təzələndi,
Düşmən üstə
od ələndi.
Qəbahətlər
çıxdı üzə,
Yalan çətir
oldu düzə.
Naqisləri qoyub üzə,
Söyləyərək əyri — düzə
Minbir oyundan çıxdılar,
Düzlərə qara yaxdılar.
İxtiyarsız
iqtidarlar,
Əli uzun,
qəlbi darlar
Bulandırmaq
üçün suyu
Hər addımda
qazdı quyu.
Qəhrəmanım —
Ulu Heydər!
Qəlbində cəsarət, hünər,
Təmkinindən
yayınmadı,
Xidmətindən
doyammadı.
Hakimiyyət hərislərin,
Nankorların,
xəbislərin
Sifətinə çırpıb sözü,





Açıqlayıb əyri-düzü
Söylədi:
«Dəyişsə də
qiyafəniz,
Yadımdadır
keçmişiniz.
Çəpik çalan,
çay daşıyan,
Şöhrətimi
elə yayan,
Ura… deməyə həvəsli,
Vətən haylı, vətən səsli,
Sancılıb xalq taleyinə,
Düşüb düşmən ələyinə,
Ələnmisiz, seçilmisiz,
Siz nə qədər kiçilmisiz.
Lazım deyil mənə kürsü,
Qorumaqçün kürsünüzü,
Dəyişərək cildinizi,
Çöhrənizi, üzünüzü
Sürtüb yadlar ayağına,
Xalqın arxa, dayağına
Balta vurmaq həvəsiylə,
Çürük qəlbin cır səsiylə
Yersiz haray qoparırsız,
Nə başımı aparırsız?!
Millətimin
dar günündə,
Bitməz borcum
var önündə.

Mən xalqıma
köməyimi,
Lazım gəlsə
ürəyimi.
Polad kimi
biləyimi,
Qurban vermək
istəyimi
Gətirmişəm
doğma yurda,
Siz olmusuz
damğa yurda.
Başınızda olsa ağıl,
Qurmazdınız belə nağıl.
Mən bu xalqın
övladıyam,
Bu xalqla da
olmalıyam.
Öz tarixi
borcumu mən
Öz yerinə
yetirməkdən
Sizə görə
yayınmaram,
Xalqı yalqız
qoyammaram!
Kəsin daha səsinizi,
Bu mənasız bəhsinizi!
İtirməyin ağlınızı,
Boş qoymayın ağzınızı…





Xalqa xidmət
üçün heç vaxt,
Gərək deyil
kürsü ya taxt.
O xidmət ki, ulu
xalqın nəfinədir,
O ən böyük və ən
ümdə vəzifədir!
Bu kürsülü vəzifələr
qalsın sizdə,
Bəd arzular, nəyiniz
var içinizdə,
Özünüz də, o dəyişməz
içiniz də.
Görürəm ki, kişi azdır
içinizdə.
Tərk etsəm də,
sizi ancaq,
Xalqım mənlə
bir olacaq.
Ömrün qalan
hissəsin də
Ulu millət
xalq yolunda,
Onun təmiz
haqq yolunda
Qoyacağam
yorulmadan»! —
Deyib, çıxdı
o gün zaldan.

***

Naqislərin xəyanəti,
İmperiyanın bəd adəti.
Qırammadı iradəsin,
Alammadı onun səsin.
Təmkinindən
yayınmadı,
Xidmətindən
doyammadı,
Öz xalqına —
vurğunluqdan,
Hər bir zaman
qürur duydu!
Düşmən hiyləsini
bildiyi üçün
Yenə öz yolunu
o seçdi düzgün.
Döndü Naxçıvana,
doğma vətənə,
Azadlıq arzusu
qəlbində yenə.
Durdu ayaq üstə
bütün Naxçıvan,
Gözəl qarşılandı
bu Ali İnsan.





***

Uçdu Naxçıvana
xəyallarım da,
Gəzdi bu torpağın
hər mahalında.
Müqəddəslik aldı
qəlbimdə o yurd,
Elə bil azaldı
ürəyimdə dərd.
Düşmən arzuları
gözündə qaldı,
Naxçıvan Heydəri
qoynuna aldı.
Bu müqəddəs torpaq,
bu ana torpaq,
Durdu ayaq üstə
qucaq açaraq.
Vətən torpağında
zülmət, qaranlıq,
Gecəyə şövq verir
ancaq şam, çıraq.
Heydər ayağını
torpağa qoycaq,
Hər yana nur saçıb
etdi çilçıraq.
Heydər Günəşindən
aldığı nurdan,
Nura bülənd oldu
bütün Naxçıvan.
Xalq özü rəhbərin
seçdi yenidən,

Böyüklü-kiçikli
bir nəfər kimi
O qaynar bulaqdan
içdi yenidən.
Şövqünə, nuruna
həsrətlər kimi
Görüşünə gəldi
Türkiyə, İran!
Düşmən ürəkləri
eyləyib viran.
Hünər meydanına
döndü Naxçıvan!
Nəğmətək qəlblərə
doldu Naxçıvan!
Orda dəyanət var,
orda ağıl var,
Cahanla bir olmuş
dastan, nağıl var.
İsitdi qəlbiylə
O, Naxçıvanı,
Heç zaman seçmədi
yadı, doğmanı.
Atalıq qayğısı
önündə o yurd,
Qoymadı içində
bir ağrı, bir dərd.
Üstünə gəlsə də
erməni namərd,
Aldı cavabını
yenilməz və sərt.





Naxçıvan — Türkiyə
körpüsü ilə
Qatıldı el — elə,
nəsil — nəsilə.
İki dövlət, bir can
olan insanlar
Keçirdi bir yerdə
toylar, nişanlar.
Qoyunla dəyişdi
düşmən əsgərin,
Dörd qoyuna verdi
hər bir nəfərin.
Yurdunda canlanan
hər bir canlıdan
Fərqini anlatdı
düşmən, qanlıdan.
Naxçıvandan doğan
Heydər Günəşi
Düşmən qəlbərinə
saldı atəşi.
Dünyanın diqqətin
çəkdi Naxçıvan,
Sülhün toxumunu
əkdi Naxçıvan.
Dünya sülh bağında
ən böyük Bağban,
Cahanı barıyla
eylədi heyran.
Hər bir anı barlı,
şərəfli ömür,

Sağlam düşüncəmə
nələr söyləmir.
Sağlam ruhla zəngin
dağ vüqarında,
Zəngin ömür yolu,
arzularında.
Bir ümman yaratdı
mənəviyyatdan,
Ancaq ona məxsus
bu saf həyatdan.
Onun sevincindən
aldığım daddan
Sözlər özü bişdi
söz qazanımda,
Qəlbimdə kök salmış
arzularım da,
Çatdı məcrasına
«Sönməz Günəş»lə.
Qəlbimdə qalanan
odla, atəşlə
Bişmiş fəsilləri
göndərdi ürək,
Özü söz camıma
əndərdi ürək.
Onun həyatının
hər anı gerçək,
Yaşayır qəlbimdə
qızıl heykəltək.
Qəlbimdə o Günəş
elə salıb kök,
Hələ fəsil-fəsil
çox göyərəcək!!





## BU XALQIN DƏRDİNİ ÇƏKMƏMƏK OLMUR

*Havamız suyumuz olan rəhbərin*
*Gərək könüllərə yazılsın adı...*

**İLYASI TAPDIQ**

Bu gerçək ömrümün
özündən gələn,
Qəlbimin dağından,
düzündən gələn
Leysan sətirləri
düzməmək olmur,
Onun sellərində
üzməmək olmur.
Bu nicat yoluna
çatdığımdanmı?
Ya Ulu Tanrının
tapşırığındanmı?
Axır ki, qəlbimi
dəlir sətirlər,
Həm də ağrısını
silir sətirlər.
Bəzən məlhəm olur,
bəzən yaraşıq,
Sətirlərdən düşür
qəlbimə işıq.
Bilməz bu nəğməni
hər ozan, aşıq,
Şair adı almaz hər
yazan aşıq.

Xəzinə yazandan da
aşıq olmaz,
Ona hər adi söz
yaraşıq olmaz.
Həyatın özündə
yetişir Dahi!
Bunu həyat bilir,
bir də İlahi!
Görünməz həyatda
görünməz həyat,
Çox yüksək tituldur —
Dahi kimi ad.
Vətən bir Anadır,
hamımız övlad,
Etmək yaraşarmı
elləri bərbad?
Xalqdan ayrılmağın
nədir lüzumu,
İnsanın gərəkdir
olsun dözümü.
Həyat bir məktəbdi,
həyat səhnədi,
Acizlik həyatın
bitməz möhnəti.
Bir xalqın olarmı
başqa möhnəti,
Özünün özünə
yoxsa möhləti.
Əzilmək ya əzmək
insanlıq deyil,





Əzablara dözmək
peşmanlıq deyil.
Bir ömür yolunda
çalınan zəfər
Xalqa bağlı olsa,
min ömrə dəyər.
Bütün sınaqlardan
çıxan Heydəri,
Özün xalq yolunda
yaxan Heydəri
Duymağa bir ömür
yetərli deyil,
Onu duymayan kəs
hünərli deyil!
Siyasət ən dərin,
böyük elmdir,
Ucalmaz, kim onu
bilmir, öyrənmir!
Hər bir elmin vardır
öz müəllimi,
Kim ki, öyrənibdir
onu səmimi,
Ucalmaz göylərə
hər yanan ocaq,
Dəmirdən tez sınar
çini qab-qacaq.
Hər addım başında
meydan sulayan,
Salaxanta şeydir
yersiz ulayan.

İtlərdə olsa da
bu mənfur adət,
İnsanlarda da var
belə qəbahət.
Əgər kimdə varsa
savad, məharət,
Göstərər xalqına
hər an sədaqət.
Atını hər zaman
daşlıqda sürsən,
Ata heç nə olmaz,
nalın tökərsən.
Elmsiz siyasət
oynuna girsən,
Xalqına, elinə
sitəm verərsən.
Təcrübə sözündən
doğan mənadan,
Aydın deyil ona
itirilən zaman?!
Dünən ad çıxaran
tutsa da meydan,
Sona özü qalar,
bir də boş meydan.
Kim ki, öz dostunu
vursa arxadan,
Özü də vurular
yəqin arxadan.
Yazdım öz xalqıma
bir hörmət kimi,





Gizlədə bilməyib
mən heyrətimi,
Ulu xalq yolunda
bir cəfakeşin
Bu yolda çəkdiyi
qayğısın, işin.
Anlatmaq məqsədi
güddüm də yazdım,
Yoxsa dərdim artar,
mən tablamazdım.
Qeyrətli, hünərli
bir oğul kimi,
Həyatı möcüzə,
bir nağıl kimi,
Əfsanəvi gücə,
qüdrətə malik,
Bütün qərarları
müfəssəl, çevik,
Zirvələr fəth etmiş
öz zəkasıyla,
Xalqa bağlı olmuş
hər amalıyla
Bir insan haqqında
yazmaq da şərəf,
Duya-duya yazmaq
ondan da şərəf.
Bu azad ölkəmdə
bu şad günümdə
Ən ümdə borcumdur
mənim önümdə.

Xalqımı səsləyim
ayıq olmağa,
Hər an gözüaçıq,
sayıq olmağa,
Qoymam bişərəflə
meydan dolmağa.
Yolundan azana,
naşı, maymağa
Meydan vermə, Xalqım,
ehtiyatlı ol.
Tək onun yoludur
ləyaqətli yol!
Bu yolda uğurlar
diləyək ona,
Onun düz yolunu
izləmək sana,
Xoşbəxtlik verəcək
hər vaxt, hər zaman.
Yol vermə meydanda
at sürə nadan.
Yol vermə qəlbinə
girməyə şeytan,
Sağlam zəfərlərə
yetdiyin zaman.
Düşmənlər yolunu
kəsmək istəyir,
Əlini xoş gündən
üzmək istəyir.
Cadugər mollalar,
dua yazanlar,





Yaltaq mürdəşirlər,
yolun azanlar
Sağlam insanları
çalmaq istəyir,
Dövlətinə hakim
olmaq istəyir.
Dilbilməz naşılar,
qarpız satanlar,
Ara qarışdırır
mənfur şeytanlar!...
Tülkülər giribdi
hacı donuna,
Çəkmək istəyirlər
səni oyuna.
Keçilər baş çəkir
quzu, qoyuna,
Yanılsan, yas düşər
elin toyuna.
Bu başsız atlılar,
quldurbaşılar
Çaşsan, taleyində
qara daş olar.
Yurdunda görünməz
bir savaş olar,
El-oban torpaqla
başabaş olar,
Ürəklərə qüssə,
gözə yaş dolar,
Bu şair qəlbim də
dönüb daş olar!...

## QƏLBİM DƏRİN QUYU, MƏN BİR SƏNGƏRƏM

*Hamı səni ata bildi,*
*Ellər harayına gəldi,*
*Yollarına gül səpildi...*

***FİKRƏT QOCA***

Qəlbim dərin quyu,
mən bir səngərəm,
Hərdən istəyirəm
elə hönkürəm,
Bəlkə bu millətin
azala dərdi,
Seçilə namərdi,
seçilə mərdi.
Qolumda gücüm var,
qəlbdə cəsarət,
Yazmağı saymadım
nə dəb, nə adət.
Qəlbimdə söz dolu
tükənməz sərvət,
Ömrün sonunacan
yetərli qüvvət.
İstəməm vəzifə,
kürsü, xitabət,
Vəzifə deyilmi
xalqına xidmət?
İstərəm dünyanı
titrədəm zərblə,





Qaytaram tarixi
ondan tələblə.
İstərəm bir dəli
nərə də çəkəm,
Barsız ağacların
yarpağın tökəm.
Onu budaq-budaq
sındıram, sökəm,
Yerində bar verən
ağaclar əkəm.
İstərəm dünyanı
mən sökəm, sökəm,
Onun tarixini
geriyə çəkəm!
Axı od oğluyam,
odlu səngərəm!
İstərəm xalq üçün
sinəmi gərəm,
Bilmirəm İrana,
Çinəmi gərəm?!
Axı saflaşmayıb
içərim hələm,
Axı yazammıram
sözləri həlim,
İstərəm qələmlə
gözləri dəlim,
Naqis baxışları
qana döndərim,

Kükrəyən qılıncı
göyə göndərim.
Qoy göylərdə gəzən
oğuzun ruhu,
Ya göydə mələklər,
ya yerdə ahu,
Onu düşmənlərə
tərəf yönəltsin,
Qanbir hədəflərə
tərəf yönəltsin.
Qanı seçmək üçün
öz qanımızdan,
Qan almaq lazımdır
öz qanımızdan.
Düşməni seçməkçün
öz yanımızdan,
Qan almaq lazımdır
dostlarımızdan.
Qanımdadı tarix,
o, safsa əgər,
Yanımdadı tarix,
dost safsa əgər.
Dönüb tarix-tarix
tarixləşən mən
Bir dərin quyuyam,
dərin səngərəm.
Hərdən istəyirəm
elə hönkürəm,





Çünki bu millətin
dərdin çəkirəm.
Hər zaman çəkmişəm,
yenə çəkirəm.
Onunçün yazdığım
bu əsərdə mən
Sönməz Günəşi hey
önə çəkirəm.
Təkrar-təkrar,
dönə-dönə çəkirəm,
Odur doğulandan
elə xilaskar,
Vətənə xilaskar,
elə xilaskar.
Alın yazısıtək
olub ixtiyar,
Edib bu torpağı,
Yurdu bəxtiyar.
Gəzib dolaşsaq da,
biz diyar-diyar,
Onun nə oxşarı,
nə əvəzi var,
Onun bükülməyən
qolu, dizi var,
Hər zaman müqəddəs —
yolu, izi var.
Gözlərində qızıl
tərəzisi var,

Xoşbəxt arzuları,
xoş nəfəsi var,
Qüdrətli oğlu var,
mərd nəvəsi var!
O Sönməz Günəşdir,
sönməz irsi var,
Həyatın özündə
bitməz dərsi var.
Qəlbimdə tükənməz,
xəzinəsi var.
Qəlbim dərin quyu,
mən bir səngərəm,
Təbimlə dünyanın
dərdin çəkərəm.
Hərdən istəyirəm,
elə hönkürəm,
Bu dərdli xalqımın
qəlbinə girəm,
Onun diqqətini
özümə çəkəm,
Qəlbimi önündə
mən açam, tökəm.
Görə bu Xalq, Millət,
görə mən kiməm,
Niyə mən dərd çəkir,
fikir çəkirəm,
Bəlkə azarlıyam,
tapılmır çarəm?





Nə bir azarım var,
nə də bir dərdim,
Dünyanın dərdindən
ötədir dərdim.
O da Xalq dərdidir,
Millət dərdidir,
Xalqım dərdli isə
qəlbim dərdlidir!
Dərdlər içimizdə,
xoşbəxtlik öndə,
Niyə dayanmışıq
biz ondan gendə?
Xalqına yanan da,
dərdin çəkən də,
Xalqı talayan da,
yurdu sökən də
Mənim içimdədi,
mənim içimdə,
Sənin içindədi,
sənin içində.
Tarix qarşısında
böyük seçimdə,
Həm sənin içində,
həm öz içimdə.
Aradım, axtardım,
tapdım, seçdim də,
Uğurlar qazandıq
biz bu seçimdə.

Mənim ulu Xalqım,
həm Sən,
Həm də mən!
Mənim qələbəm də
sənin qələbən,
Sənin qələbən də,
mənim qələbəm!
Axı olmalıyıq
həmfikir, həmdəm,
Ali baş komandan,
həm Şah Qəhrəman,
Özü göndəribdi
Onu Yaradan!
O sənə də əyan,
mənə də əyan,
O sənə də həyan,
mənə də həyan,
Onun arxasında
inamla dayan!
Sönməz günəşindir,
dəyişməz Dünyan,
Sağlam gələcəyin,
əvəzsiz Dühan!
Əbədi xoşbəxtlik,
dəyişməz ünvan,
Bilsin Ana torpaq,
qoy bilsin Cahan,
Tanrı yetiribdi
Onu Qəhrəman!





Tanrıdan əmr alıb
qələmə alan,
Səsini dünyaya,
aləmə salan,
O müsəlləh əsgər —
şair mənəm, mən!
Qəhrəmanı Ulu
olan mənəm, mən!
Nizami təbincə
yazar mənəm, mən!
Qəlbim dərin quyu,
bir səngərəm mən,
Ömürlük bu yolda
səfərbərəm mən!
74-dən burda
səfərbərəm mən,
74-dən burda
səfərbərəm mən!

## TANRI AĞRI VERDİ, MƏN MƏLHƏM SANDIM

*Təmkinli, dözümlü, qüdrətli xalqım...*
*Olub qibləgahın, olacaq Heydər!*

***Zəlimxan Yaqub***

Tanrım, mənə niyə
verdin ağrını?
Yoxsa dərdin özü
tapdı dağını?
Çox yüksək zirvəyə
çəkmisən məni,
Axı tapammıram
burda kimsəni.
Qorxuram yorulam
bu tənhalıqdan,
Ümidlər də boşa
çıxa nahaqdan.
Mənə sirdaş göndər,
anlayan olsun,
Od-alova düşsə,
yanmayan olsun.
Əmrinə müntəzir
oldum da, yazdım,
Sönməz sətirləri
bəndlərə düzdüm.
Dözdüm,
qazamatın zülmünə dözdüm,
Günəşsiz yaşadım,





Günəşdən yazdım.
Məmnunluq duysam da
vergi payından,
Qəlbimdə varsa da
Cəngi hayından,
Yenə narahatdır
qəlbim, özüm də,
Dünya alovlanır,
yanır gözümdə.
Məni anlamayır
şair təblilər,
Bir qəlblə yaşayan
min mətləblilər.
Dərdlər ağuşunda
qalıb dərdlilər,
Dərdqanmaz dərdlinin
dərdin nə bilər?!
Dedim Nizamiyəm,
qoydular lağa,
Çağırdım ruhları
qalxsın ayağa,
Mənə pay verdilər
oyanmadılar,
Ruhlar da yuxudan
doyammadılar,
Oyat onlarısa
çatsın hayıma,
Sözləri ox kimi
düzsün yayıma.

Qoyma kamanımdan
bir söz yayına,
Qılıncım yerləşmir
daha qınına.
Söz qazanım qaynar,
qapaq tapılmaz,
Dərd evim deşilib
yamaq tapılmaz,
Mənimcən dərdlərə
yanmaq tapılmaz.
Bənzətməyə şam, nə
çıraq tapılmaz.
Bütün yanğılara
dözə-dözə mən,
Qalmışam özümü
gəzə-gəzə mən.
Nə dost yanındayam,
nə düşmənlə tək,
Donub gözlərimdə
sanki gələcək.
Nə dayana bilir,
nə dincəlirəm,
Sətirdən-sətirə
mən sancılıram,
Alovlu sözlərin
qəddin qırıram,
Qələmi yoruram,
vaxtı yoruram.
Özümsə yorulmur,
nə də yatmıram,





Səfərim uzundur,
sona çatmıram.
Çatmaq həvəsim də
yoxdur, gedirəm,
Zamanı güdürəm,
anı güdürəm.
Dincəlmək istəmir,
elə gedirəm.
Səməddən hay umdum,
pay verdi mənə,
Müşfiqdən hay umdum,
pay verdi mənə,
Cəlildən hay umdum,
pay verdi mənə,
Nizami irsindən
pay verdi mənə.
Təkcə təbim özü
hay verdi mənə.
Təbimin hayına
ilhamım çatdı,
Təbimlə birləşib
əsər yaratdı.
Günəş özü mənim
hayıma çatdı,
Ulduzlar narahat,
Ay narahatdı,
Onlar da dincəlmir
nə də yatmırlar,
Onlar düşüncəmdə
nə yaratmırlar?

Onlar məni güdür,
mən də onları,
Sanki mənsiz keçmir
bircə anları.
Başımın üstündə,
gözüm önündə,
Keçir zamanları
Ayın, Günün də.
Gözümü yuman tək
qeyb olsalar da,
Peydadır gözümü
açdığım dəmdə.
Onlar mənə heyran,
mən də onlara,
Bilməm bu minvalla
gedirik hara?
Aydın gələcəyə
yetişmək üçün,
Seçmişik bu yolu,
yəqin ki, düzgün.
Mənim görən gözüm,
görən ağlım var,
Tükənməz dastanım,
bitməz nağlım var,
Heç ondan yazmaqdan
qalmaqmı olar,
Hey yazsan, sonuna
çatmaqmı olar?!
Deyirlər Günəşin
gücü azalır,





Elmli insanların
dərdi çoxalır.
Mənimsə xalqımın
dərdi yox daha,
Sönməz Günəşi var —
Heydərtək düha!
Tanrım, özün verdin
Xalqıma Onu,
Əsla dəyişməzdir
libası, donu.
Mən də şah qəhrəman
seçmişəm Onu,
Yolunda keçəcək
ömrümün sonu.
Qəlb evimdə qurdum
bir kitabxana,
Ha yazsam cildləri
çatmazdır sona.
Həyatın özündən
mən alıb təbi,
Heç vaxt xoşlamadım
modanı, dəbi.
Şairəm, ömrümün
birdir mətləbi,
Qurum kitablardan
Heydər məktəbi.

# SÖZLƏRİN ÖZÜNDƏN QOPA BİLMİRƏM

Qarmaq atır kimsə sözə,
Kimsə sözün
qarmağından qopammır,
Yeni sözlər çözə-çözə
Misralara
yazmağından usanmır.
Söz qarmaqdı,
söz tilovdu, söz ovdu,
Söz qiymətin bilməyənlər
özü sözə girovdu.
Dilimdə sözlər var
asılqan kimi,
Danışır qəlbimlə
bir insan kimi.
Elə qaynayır ki,
səngimək bilmir,
Düşünsəmdə gəzir,
tərk etmək bilmir.
Gəzib doya-doya
qopur qəlbimdən,
Düşüb vərəqlərə
hopur qəlbimdən.
Sinəmdə qaynayır,
qələmdən daşır,





Sətirlərdən axıb
bəndə toplaşır.
Bir ömür bağının
barları sözlər,
Yorulmaq bilmədi
gecə-gündüzlər.
Tarixə qalanan
arzulu sözlər
Qəlbimin özündən
üzülməyində,
Sonsuz misralara
düzülməyində.
Özüm dayanmışam
söz keşiyində,
Körpə uşaq kimi
qəlb beşiyimdə
Elə yırğalayıb
əzizləyirəm,
Misraya düzməyə
vaxt diləyirəm.
Sönməz silahdaşı
ömür yolumun,
Tükənməz köməyi
dəmir qolumun.
Qolumdan yapışıb
göylərə dartır,
İlhamım anlarla,
günlərlə artır.

Həyatım uzanır,
ömrüm uzanır,
Taleyim bir yeni
ömür qazanır.
Elə bir ömür ki,
orda arzular,
Bir şair ömründən
bitməz yazılar.
Yazıla-yazıla
tarixə dönür,
Ömrümün özündən
arxivə dönür.
Mənim poeziya
tarixim kimi,
Düşüncəm sözbəsöz
sökür içimi.
Elə zaman-zaman
sökülür içim,
Daşınır içimdən
söz seçim-seçim.
İstəməm nə nəşə,
nə də mey içim.
Nəşəm də, meyim də
sətirlərdədi,
Nəğməm də, nəqşim də
sətirlərdədi,
Olsa gileyim də
sətirlərdədi.
Bitməz əməyim də
sətirlərdədi,





Bitməz əsərim var,
ürəyimdədi.
Xalqıma borcum var,
diləyimdədi,
Xoşbəxtəm o yükü
daşıya bilsəm,
Ömrümü mənalı
yaşaya bilsəm.
Əgər ürəyimi
boşalda bilsəm,
Onu kitablarda
yaşada bilsəm!...
Ömür yetişibdi
sona da bilsəm,
Bu müqəddəs yoldan
dönə bilmərəm,
Düşüncəm içimdə
yana bilmərəm.
Tanrının əli var
kürəyimləbir,
Sönməz Günəşim var
ürəyimləbir.
O yaşadır məni
misra, bəndlərdə,
Yol tapmaz qəlbimə
ağrı, dərdlər də.
Bir nərəm oyadar
sağlam ruhları,
Göylərlə bir olar
düşmən ahları.

Əli qələmlilər,
coşqun təblilər,
Öz xalqına vurğun
saf mətləblilər.
Qoy çıxsın meydana
əlində yaraq,
Hərəmiz müsəlləh
bir əsgər olaq.
Xalqın ağrısına
bir sipər olaq,
Hər düzü, dağına
bir sipər olaq.
Qoy olsun əldəki
qələmlər yaraq,
Düşmən üzərində
zəfərlər çalaq.
Türk oğlu — türk kimi
hayqıraq yenə,
Döyüş meydanında
bərq vuraq yenə,
Düşmənləri büküb
vərəq — kəfənə,
Heç də işlətmədən
yaraq cəminə,
Sətirlərdə qazaq
qəbirlərini.
Xalqımın içindən
naqislərini
Düzək sətirlərə,
bənd-bənd basdıraq,





Amansız düşmənin
bəndini qıraq.
Göylər qatındayam,
yenə uçuram,
Yenə ulduzlara
qanad açıram.
Ruh verir ölkəmdə
keçən tədbirlər,
Ömrün tarixinə
calanan illər
Qəlbimə ruh verir,
coşdurur məni,
Ən uca dağlardan
aşırır məni.
Arzular qoynunda
çırpınır ürək,
Şeir aləminə
tapınır ürək.
Yenə yol gedirəm
sətirlər boyu,
Arzuyla ötüşüb
gədiklər boyu.
Sözlərin özündən
qopa bilmirəm,
Yenə mən dincəlib
yata bilmirəm.
Yenə söz kükrəyir,
kükrədir məni,
Təbim cuşa gəlib
titrədir məni.

Yenə söz çələngi,
nəğmə çələngi,
Qəlbimin özündə
çalınır "cəngi".
Bu dürrlü sözlərin
yallısında mən,
Heydər həyatının
aynasında mən
Sonu görünməyən
arzu-kam kimi,
Xoşbəxt gələcəyə
bir inam kimi
Qəlbi boşaldıram
hey fəsil-fəsil,
İllərdən qəlbimə
düşən hər fəsil
Bir insan ömrünün
barları kimi,
Dolub fəsil-fəsil
tutub qəlbimi.
Mən ha fəsil-fəsil
yazsam da müdam,
Boşalmır ürəyim,
heç doymur mədəm.
Niyə doyammıram,
Oldum məəttəl.
Şeir aləmində
çox acgöz təməl
Qoymaq lazımmışmı? —
Sordum özümdən,





Səs gəldi içimdə
olan düzümdən.
«Doğuldun, doğulduq,
qəlbinə dolduq,
Hər zaman səninlə,
qəlbinlə olduq,
Sinənin özündə
elə yoğrulduq,
Başqa ürəklərə
yerləşmərik biz,
Nə də ki, səninlə
üzləşmərik biz.
İstərsən isticə
qəlbində saxla,
İstərsən gücünü
qələmlə yoxla.
Götür düz bəndlərə,
həyat ver bizə,
Biz də sevinc dolu
bəxş olaq sizə».
Qəlbimdən dilimə
bəxş olan sözlər,
Danışır mənimlə
gecə-gündüzlər.
Danışır doymayan
pıçıltı ilə,
Qəmə bürünəndə
hıçqırtı ilə.
Qəlbimin özünü
dəlib-tökürlər,

Söz-söz sökülürlər,
söz-söz sökürlər.
Qəlbimdən süzülüb,
sətrə çökürlər,
Sonsuz sətirlərdən
bəndlər tikirlər.
Şeir bənnasıyam,
söz ustasıyam,
Bəndlərə qoymağa
söz yazasıyam.
Dağları uçurub
düz qoyasıyam,
Ya düzlərdə yeni
dağ qurasıyam.
Axı türk oğluyam,
türk balasıyam,
Türkün tarixini
mən yazasıyam!
Mənim Atatürküm,
Günəş Heydərim,
Mənim arzu Dünyam,
axşam, səhərim.
Ondan ha yazıram
qurtarammıram.
Qəlbimdən sözləri
qoparammıram,
Bir söz qoparıram,
min söz göyərir,
Gözlərim önündə
Yer, Göy göyərir.





Ətrafımda da söz,
içimdə də söz,
Gözümdə, başımda,
canımda da söz.
Sözlə yüksəlmişəm
qanıma qədər,
Bütün vücuduma,
canıma qədər.
Sözə bələnmişəm,
sözə bələnmiş,
İçimdə sözlər də
sözə bələnmiş.
Sanki sözlər özü
mənə güvənmiş,
Qəlbimə beynimə
elə dirənmiş,
Göylərə qaldırır,
uçurur məni,
Sönsuz məlallara
qaçırır məni.
Bir tarix yazıram
Ulu Həyatdan,
Bir əsər yazıram
Nurlu Həyatdan.
Ona Günəş kimi
verdiym addan,
Qəlbimə nurundan
səpilən daddan.
Söz-söz sətirlərə
düzə-düzə mən,

Sözlərin özündən
qopa bilmədən,
Qəlbimin tükənməz
xəzinəsindən,
Ləli-gövhərindən,
söz incisindən.
Qəlbdən ovuc-ovuc
daşıyıb, düzüb,
Sözləri xalı tək
döşəyib, düzüb,
Bir əsər yazıram
sonu görünməz,
Bir tarix yazıram
izi silinməz.
O elə qocaman,
o elə cavan,
Elə bir həyat ki,
həmişə ravan.
Heç zaman dəyişməz,
dəyişsə dövran,
Dəyəri əvəzsiz,
hər vaxt, hər zaman.
Qiymət cədvəlidir
tarix və zaman,
Zaman da tarixdir,
tarix də zaman.
Verəcək qiymətin
tarix və zaman!





## HƏRƏKATDAN DOĞAN QARA FƏLAKƏT

Meydanlarda canlanma var,
Yumruq düyərək insanlar,
Haqsızlığa qarşı çıxır,
Hamı meydanlara axır.
Hər şəhərdə, hər rayonda,
Qəsəbələr meydanında.
Canlanma var —
mitinq gedir.
Çıxış üçün ora neçə
natiq gedir.
Odlu-odlu
çıxışlardan,
Səsli-küylü
küçə, meydan.
Cəbhələrdən
gələn də var,
Yol verir
bütün insanlar,
O, cəbhədən
gəlib deyə,
Buraxırlar
irəliyə.
«Yeri, tez ol,
danış görək,
Cəbhədən bir
xəbər bilək».

Mikrafona
yaxınlaşan,
O cəbhədən
gələn oğlan
Əllərini
yelləyərək,
Nərə çəkib
kükrəyərək,
Söz atını
çapa-çapa
Sanki muncuq
düzür sapa.
Açılmış kimi
buxovdan,
İçindəki
od-alovdan
Hərarətli
nitq söyləyir,
Hər nə varsa,
açıq deyir.
Biz azadlıq
yolundayıq,
Tam səfərbər
olmalıyıq.
Torpaqlara
sipər kimi,
Müsəlləh bir
əsgər kimi
Sərhədlərdə
səngər qurub,





Düşmənləri
vurub, qırıb,
Öz tarixi
yurdumuzu,
Nizamlayıb
Ordumuzu,
Tamam azad
etməliyik!
Qarsa qədər
getməliyik.
Oradan da İranacan
Böyük yürüş
etməliyik.
Əsir düşmüş
torpaqları.
Tamam azad
etməliyik.
Dursun bütün
Azərbaycan,
Qoy birləşsin,
olsun bir can.
O, bu dövrün
«Babəkidi»?!
Elə qızıb
sanki divdi.
Alqışların
gurultusu,
Meydanların
uğultusu,
Bir gəlhagəl,
bir ərəsət,

Baxdıqca
edirsən heyrət.
Şuşa mənim
öz yaylağım,
Kəlbəcər
olar oylağım.
Təkrar-təkrar
təkrarlayır,
İnsanları
haraylayır.
Özüm qalxım
bir Şuşaya,
Cıdır düzü,
Qoşa qaya,
İldırımlar
oylağından,
Hər yüksəklik,
hər dağından
Top atəşi
yayımlanar,
Ola bilməz
yayınmalar.
Atəşləri
düz hədəfə,
Təkrar-təkrar,
dəfə-dəfə
Vuracağam
özüm, özüm,
Vurammasam
çıxsın gözüm.





Daha yoxdur
məndə dözüm,
Ora yollanıram özüm!..

***

Çıxışlardan
od tökülür,
Arxada qollar
bükülür,
Torpaqlara qan
tökülür,
Hər cığır, hər yol
sökülür.
Səngər olub
bütün sərhəd!
«Qoç Koroğlu»,
«Bəlli Əhməd»,
«Dəmirçoğlu»
qeyrətiylə,
Xalqın böyük
adətiylə,
Bu «qeyrətli»
dağarcıqlar
Qurub dağda
alaçıqlar.
Sərhədləri
dağ-dağ gəzib,
Ermənini
«qırıb, əzib»,
Böyük zəfər
«çalmaq üçün»,

Qarabağı
«almaq üçün»
Xalq yoluna
çıxdıqların,
Haqq yoluna
çıxdıqların
Hər an bəyan
edə-edə,
Çatmadılar heç
sərhədə.
Kürsülərə
atıldılar,
Torpaqla bir
satıldılar.
"Təpəmə bir güllə
çaxaram" deyən,
Hər addım başında
özünü öyən
«Babək» tərk
etdi Şuşanı.
Əlindən
itdi naqanı.
Nə baş qaldı,
nə də ağıl,
Söylədiyi
oldu nağıl.
Düşüncələr
oldu yağır,
Getdi əldən
hər yol, cığır.





«İsabalı» çapdı köndələn,
Erməninin gözün dəlləm.
Lap bir maşın
baş göndərrəm,
Torpaqları
mən döndərrəm.
Bu ümidsiz xalqım, hamı
ona da etdi inamı.
Qarışdı yenə əyyamı,
«İsabalı»nın da əncamı
Kəlbəcərlə uçub getdi,
Aralıqda məshəb itdi,
Baş gəlmədi, başlar getdi.
Qullar, qarabaşlar getdi.
Əsir düşdü qız-gəlinlər,
Əsir düşdü neçə əsgər.
Xocalı yerlə bir oldu,
Gen dərələr qəbir oldu.
Kasa daşdı, səbir doldu,
Baş kəsildi, qaş soyuldu.
Diş çəkildi, göz oyuldu.
Qəlbim özü göz-göz oldu,
Bir ah-nalə, bir ərəsət,
Dağlar boyu qanlı cəsəd.
Xocalıdan əsən külək
Şəhid ruhlar harayıtək
Ürəklərə buz gətirdi.
Yaralara duz səpdirdi.
Damarlarda donubdu qan,
Diri ikən ölüb insan,
Ümid səngərdə qırılıb.
Dalan döngədə qırılıb.

Yurdumuza qan dağılıb,
Uca dağlardan dağılıb.
Bölük-bölük —
təpə «dağlar»
Bu millətə
çəkdi dağlar.
Naləsinə
yer-göy ağlar,
Xəzər ağlar
Egey ağlar!..
Daşlar özü
yara bağlar!..
Ürəklər var,
heç daş deyil,
İnsanlar var,
baş — baş deyil,
Yağı düşmən,
soydaş deyil.
Bu oyundu,
savaş deyil.
Meydanları
tutan kəslər,
Bu kəndirsiz
kəndirbazlar
Xalqı necə
aldatdılar,
Meydanlara
çıxartdılar.
Silah-sursat
gəlir — deyə,





Sinəsinə
döyə-döyə
Kölgə kimi
süründülər,
Min bir dona
büründülər.
Birdən elə itildilər,
Xalqı qırğına verdilər.
Qanı qızmış,
əliyalın,
Meydanlarda
qalan xalqın,
Mərd oğluna,
mərd qızına,
Körpəsinə,
qocasına
Divan gəldi,
ölüm gəldi,
Görünməmiş
zülüm gəldi.
Tarixlərin
qan yaddaşı,
Həyatdan neçə
yurddaşı
Yaddaşına
yazdı getdi.
Xalqa divan tutdu, itdi.
Qatma-qatma
düşən düyün,
Öz xalqına
düşmən düyün,

Düyünlərdən
qopmuş kimi
Yenə düyür
pəncəsini
Qəlbinə qan
qoymaq üçün,
Qan içində
qoymaq üçün.
Qanlı-qanlı
əllər ilə,
Yeni bəd
əməllər ilə
Üstümüzə
gəlir birbaş.
İçdə düşmən,
üzdə soydaş,
Bir sürü
kölgə, qara daş
Deyə-deyə:
«qardaş — qardaş».
İçmək üçün
qanımızı,
Almaq üçün
canımızı.
Bu qatillər,
şərəfsizlər,
İnsan soylu
bu öküzlər
Qoyma girə meydanlara,
taleyini özün ara.





Onlar hara,
Heydər hara?
Ağ günlərin
olar qara,
Günəş nurlu
bu yollara
Lent çəkilər —
qara-qara.
Ölüm gələr,
itim gələr,
Günün gündən
çətin gələr.
Həqiqətə
çətir gələr,
Qan çilənmiş
fətir gələr.
Qov onları
meydanlardan,
Bax gör Günəş
çıxır hardan.
Həqiqətin gözü orda,
Xoşbəxtliyin özü orda.
Dur! Ey Xalqım,
qalma darda,
Şənliklər qur
meydanlarda.
Sönməz Günəş
şüasıyla,
Yurdumun
ab-havasıyla,
Keçənlərə
güzəşt demə,

Hər işığa
Günəş demə.
Get yoluyla
o Günəşin,
Xoşbəxtliyə
doğru peşin.*
Namərdlərlə
nədir işin,
Hər gədənin,
görməmişin
Sözlərinə
qoyma məhəl,
Xoşbəxtlikdir
öndə təməl.
Bu təməli qoyan
Heydər!
Şöhrətini yayan
Heydər!
Odur Dövlət
təməldaşın,
Etibarlı,
mərd yurddaşın.
Yaxşı-yaxşı
düşün, daşın,
Olanları
arşın-arşın
Ölçüb yaz sən
yaddaşına,

* peşin - səmtin





İgid nərlər
savaşına,
Heydər kimi
rəhbər gərək,
Heydər, İlham,
Heydər gərək!
Yollarında sinə gərək
Sən də, mən də!
Gələcəyi xoşbəxt görək
Sən də, mən də!
Sən mənə de,
mən də Sənə
Yaddaşlarda
qalanları.
Yığılsınlar
dənə-dənə
Xalqımın mərd
İnsanları,
Boşaltsınlar
meydanları!
Meydan tutan
şeytanları,
Toy libaslı
ilanları
Sürü kimi
sürükləyək,
Çınqıl kimi
kürəkləyək.
Xoşbəxtliyə
əl eyləyək,
Özü də bir yol eyləyək!

## SİNƏMDƏN BİR DURNA QATARI KEÇDİ

*Heydər Atadır, xalqımızın rəhbəridir O!*
*İnsanlığa rəhbər seçilərsə, yeridir, O!*

***Rəfiq Zəka Xəndan***

Sinəmdən bir durna
qatarı keçdi,
Qəlbimin dağından —
dağına köçdü.
Qayalar dibindən
kəkliklər uçdu,
Xəyal aləmindən
mələklər uçdu.
Qəlbi Aran-dağlı
gəzə-gəzə mən,
Çatmadım nə dağa,
nə də düzə mən.
Bu qatar sözləri
düzə-düzə mən,
Gecədən borc kimi,
hər gündüzə mən
Saatlar da aldım,
anlar da aldım,
Ha yazdım, sönmədim,
qaynar da qaldım.
Yuxusuz, rahatsız
qəlbimlə birgə





Əsla yorulmadım,
gəlmədim təngə,
Bu qaynar sözlərlə
hey çıxdım cəngə.
Tutduğum sözləri
mən çəngə-çəngə
Düzdüm sətirlərə,
misraya döndü.
Misralar çoxaldı,
bənd-bənd göründü.
Bir insan ömründən
hər nə göründü,
Həyatın özündən
hər nə göründü,
Qəlbimə, gözümə,
mənə göründü,
Düşüncəmdə
dönə-dönə göründü.
Özü məni
məcbur edti sözbəsöz,
Ürəyində
çox gəzdirmə, sətrə düz.
Mən də düzdüm
sətirlərə oldu bənd,
Hey çoxaldı
vərəq-vərəq, doldu bənd,
Vərəq-vərəq doldu,
kitab oldu bənd!
Kitablardan
yaddaşlara doldu bənd!

***

Həyatımın özü
dolubdu bənd-bənd,
Ömrüm bəndlərdəsə,
olmam nabələd.
Xalqıma, elimə,
özümə bələd,
Söylədiyim hər bir
sözümə bələd,
Sönməz Günəşimin
özünə bələd!
Qəhrəmanımdakı
dözümə bələd!
Qəlbimdə sözlərdən
düzümə bələd!
Tükənməz xəzinəm —
özümə bələd!
Özümdəki taba,
dözümə bələd!
Özümə verdiyim
sözümə bələd!
Nə qələm nabələd,
nə mən nabələd,
O, mənə bələdçi,
mən ona bələd!
Gedirik bu yolla
biz yana-yana,
Düzünə gedirik
sapmadan yana.





Bu yoldur aparan
gözəl dövrana,
Xidmət etmək üçün
xalqa, Cahana,
Mənəvi saflığı
olan İnsana!
Xalqına mənəvi
dayaq İnsana!
Ucalıq gətirən
xalqa, Cahana,
Gözəllik gətirən
dövrə, zamana,
Onun ömründəki
məziyyətləri,
Həyat yolundakı
əziyyətləri,
Hər bir qələbəni,
hər bir zəfəri,
Onu anlamayan
hər bir nəfəri
Dolğun gerçəkliyə
çağırmaq üçün,
Xalqa gərəkliyə
çağırmaq üçün,
Qanmazı yoluna
düz qoymaq üçün,
Sağlam gələcəyə
iz qoymaq üçün,
İbrətli, örnəkli
söz qoymaq üçün,

Özündən-özünə
göz qoymaq üçün,
Sağlam ürəkləri
ayırmaq üçün,
Onu şirin sözlə
doyurmaq üçün!,
Sənətin özündə
iz qoymaq üçün,
Orda dürlü-dürlü
söz qoymaq üçün,
Şeir, söz mülkündə
iz qoymaq üçün
Elə sarılmışıq
bir-birimizə,
Ürəyim bacarmır
qələmsiz dözə!
Bu şeir-söz adlı
aləmsiz dözə!
Qəlbimə, ruhuma
həmdəmsiz dözə!
Bu, alın yazım tək
qəlbimə hakim,
Ürək ağrıma da
bir təbib, həkim.
Təbim də şeirdir,
həbim də şeir,
Bir yeni həyatdır
təbimdə şeir.
O mənim özümtək
danışan dilim,





Sağlam insanlarla
görüşən əlim,
Həyatda görsənən
işim, əməlim.
Orda həyatımın
tarixçəsi var,
Ömrümün hər anı,
saniyəsi var.
Orda eşq, məhəbbət
nişanəsi var,
Ona istiqamət
işarəsi var.
Orda bir xəzinə
nişanəsi var,
Ona istiqamət
işarəsi var.
Tanrıdan əmanət
nişanəsi var,
Ona istiqamət
işarəsi var.
Orda arzular var,
göylə yarışan,
Qaynayan, anbaan
kükrəyən, daşan.
Ucalıb göylərin
özündə uçan,
Sonsuz səmaları,
göyləri qucan
İstəklər yaşayır
bu şeirlərdə,

Burda əks olunub
xeyir də, şər də.
Xeyirə xeyirli
yollar dilədim,
Şərə də adına
yetişsin dedim.
Ulu Tanrıdan da
budur istəyim!
Haqlıya haqlı göz,
haqsızı gözsüz,
Həmişə haqsızı
haqlıdan ucuz,
Haq yolun uğurlu,
nahaq uğursuz,
İnsanı mənəvi
varlıqlı — pulsuz,
Ölkəmi firəvan,
Xalqımı dulsuz,
İnsan nümunədir,
pullu, ya pulsuz,
Nümunə olmaqdır
ancaq arzumuz.
Qələmim də, mən də,
ilham, təbim də,
Söz camın gəzdirən
ilham pərim də
Tək bir arzu ilə
yaşayırıq biz,
Xoşbəxt arzuları
daşıyırıq biz.





Söylədiklərimdir
qolum, qanadım,
Zəhmət hamımızın,
ad mənim adım.
Mən bu doğmalardan
heç vaxt doymadım,
Nə bekar, nə də ki,
işsiz qoymadım.
Nə çovğundan qorxduq,
nə boran, qardan,
Nə daşqından, seldən,
nə ildırımdan.
Axı necə qorxsun
qəlbim, ya özüm,
Sıldırım deyilmi
hər dağım, düzüm,
Qəlbimin özündə
ən uca dağlar,
Orda şimşək də var,
ildırım da var.
Çaxsa ildırımlar,
yağsa yağışlar,
Qəlbimin selinə
dözməkmi olar?
Sözbəsöz yetişib
düşməsə barı,
Onu ürəyimdən
üzməkmi olar?
Söz özü olmasa
durna qatarı,

Leysan sətirləri
düzməkmi olar?
Elə yetişibdir
qəlbimdə sözlər,
Bal kimi süzülür
qələmdə sözlər.
Sinəmdən bir durna
qatarı keçdi,
Qondu vərəqlərə
ötəri keçdi,
Qəlbim o mirvari
sözləri seçdi,
O sözlər boyuna
sətirlər biçdi.
Onları düzməyə
fəsillər seçdi,
Düşüncəm
fəsildən-fəsilə keçdi.





## BAŞIMIN ÜSTÜNDƏ SÖNMƏZ GÜNƏŞİM, NİZAMİ İRSİNDƏN DOĞAN GÜNƏŞƏM

***Daş-torpağın, suyun varlı,***
***Yolun-izin şaxta-qarlı.***
***Fəqət nə qəm, daim nurlu***
***Günəşin var, Azərbaycan!***

*HƏMİD ABBAS!*

Başımın üstündə
Sönməz Günəşim,
Nizami irsindən
doğan günəşəm!
Sənət, söz sahibi
yazmaqdır peşəm,
Bu aləmə qəlbi
dolu gəlmişəm.
Yenə söz
atını çapır qəlbimdə,
İlham imdadını
tapır qəlbimdə.
Qəlb evimdə tufan,
boran, qar olur,
Təbim tufanda da
nəğməkar olur.
Hər anın öz nəğmə
ahəngi vardır,
Qəlbimin söz dolu
səhəngi vardır.

Alıb ilham pərim
səhəngi ələ,
Doldurur söz camın
aram, təmkinlə.
Mən də tələsmirəm,
daha təmkinlə
Sözləri oxşayıb
şirin dil ilə
Sətir-sətir,
misra-misra düzürəm,
Düşüncəmi
birər-birər yazıram.
Qayıdıram,
tarixləri gəzirəm,
Tariximdən
yeni tarix yazıram!
«Sönməz Günəş» —
itməz tarix yazıram!
Olanlardan
tarix-tarix yazıram!
Yaşayıram
bir ömürün illərin,
Yaza-yaza
yadda qalan günlərin.
Bu bir borcdur,
borclarımın ümdəsi,
Bu yollarda
neçə ki var nəfəsi
Şair Eldar
yazar həyat nəğməsi,





Kitab-kitab
canlı Heydər nəfəsi!
Duyulduqca
xalq sevinib şad olar,
Sevinc dolu
dünyamız abad olar.
Oyan, xalqım,
yatmaq ölüm soyludu,
Heydər ömrü
düyünlüdü, toyludu.
Onun yolu
xoşbəxtliyin yoludu!
Oyan, dağıt
başın üstdən buludu,
Heydər, İlham
qanadındı, qolundu,
Hər ikisi
Övladındı, Oğlundu.
Düşmən səni
yoldan vurmaq istəyir,
Məqsədinə
nail olmaq istəyir.
Müxalifət
tələ qurmaq istəyir,
Ümidini
tamam qırmaq istəyir,
Ümid yolun —
Ulu Heydər yoludur!
İlham onun
yenilməz, mərd qoludur!

Nəvə Heydər
yeni açmış çiçəyin,
Sevsin onu
gəlinin, ağbirçəyin!
O ürəkdir,
ürəklərin dirəyi,
Ulu yolun
gələcəyi — gerçəyi!
Ulu xalqım,
öz yolunda məğrur ol!
Tanrı verib
sənə arxa, üç oğul!
İlham, Heydər
Heydərinin davamı,
Kim qanmırsa
avamların avamı.
Meydanında
mərd igidlər gərəkdir!
Heydər, İlham
bir də Heydər gərəkdir!
Bu üç qardaş
Ulu xalqa köməkdir!
Sənə ancaq
Günəş, Günəş gərəkdir,
Yollarında
Sönməz Günəş gərəkdir!
Günəşlərə
səndən güvənc gərəkdir!
Tanrı məni
kömək, arxa göndərib,





Gələcəyə
baxa-baxa göndərib.
Özü məni
bu ünvana göndərib,
Yetişdirib
bu dövrana göndərib.
Tapşırıbdı
yazım, edim tərənnüm!
Başqa yoxdur
bir istəyim, təmənnam,
Güvənc olsan,
mən də sənə güvənnəm.
Sənə, ona,
ona, ona güvənnəm,
Üç arxana,
üç oğluna güvənnəm!
Onlardan da
tək güvəncdir təmənnam.
Varım da var,
xəzinəm də al, oxu!
Sənə düşmən
ürəklərə çal, oxu!
Asfalt üstdə
səpilən ot cücərməz!
Naşı bağban
bar ağacı becərməz,
Yaltaq olan
zirvələrə ucalmaz!
Dağda olar,
təpələrdə qar olmaz!

Sərçə quşlar
dönüb nəğməkar olmaz!
O, bülbüldü,
ötməyindən dayanmaz!
O, şairdir,
yazmağından doyammaz!
Şair oldum,
yetişdim söz mülkünə,
Mən bələdəm
hamısının kökünə!
Çoxlarının
birə düşüb kürkünə,
Meydan nədi,
çaqqal nədi, tülkü nə?!
Bu qələmlə
son qoymaqçün kökünə
Bülbül kimi
ötmək üçün gəlmişəm!
Köməyinə
yetmək üçün gəlmişəm!
Dünənindən
bu gününə gəlmişəm!
Nizami irsindən
doğan günəşəm,
Xalqım, sənin
görüşünə gəlmişəm!
Ulu Heydər
görüşünə gəlmişəm!
Sönməz Günəş,
görüşünə gəlmişəm!





Mən Tanrıdan
tapşırıqla gəlmişəm!
Qəlbimdəki
yaraşıqla gəlmişəm!
«Sönməz Günəş» —
nur, işıqla gəlmişəm!

## SİNƏMDƏ ÇAY AXIR, SELLƏR OYNAYIR

Sinəmdə çay axır,
sellər oynayır,
Dilimə söz axır,
tellər oynayır.
Coşqun dəniz kimi
sinəm qaynayır,
Sakitlik bilməyir
müdam qaynayır.
Sanki söz acıdır:
mədəm doymayır,
Yazmaqla ötüşən
vədəm doymayır.

***

Şırıltılı bir çay
axır sinəmdən,
Söz uçub tərlantək
çıxır sinəmdən,
İldırımtək sözlər
çaxır sinəmdən.
İlxıdı, ordudu
sinəm boyu söz,
Yandırır qəlbimi
yenə atəş, köz,





Yenə tabla buna,
ürək, yenə döz.
Qəlbimboyu cəmləşmiş
söz ordumu
Etmək üçün
müdafiə yurdumu
Yetişdirdim
dağlarında sinəmin.
Eşitdiyim
nağılında nənəmin.
İgid hünər
meydanına çıxmağa,
Yağıların
sinəsini yaxmağa,
Uca-uca
zirvələrə qalxmağa
Gedən yolda
igidlərə hay kimi,
Tanrım özü
göndəribdi pay kimi!
Ulu Heydər
— şair qəlbin hakimi!
Ürəyimdən
qopub gələn sözləri
Vəsf etməyə
Vətənoğlu — Heydəri!
Arxasınca
gedənləri öyməyə,
Ona qarşı
çıxanları söyməyə,
Mən gəlmişəm
öz sözümü deməyə!

Yetmək üçün
öz xalqıma köməyə,
Yorulmadan
ona xidmət etməyə!
Adət etdim
haqq yoluyla getməyə!
Yollarımda
çınqıl olsa, daş olsa,
Çovğun olsa,
boran olsa, qış olsa,
Gur yağışlar,
sellər aşıb daşarsa,
Bu yol məni
yarğanlardan aşırsa,
Qayalardan,
sərt dağlardan aşırsa,
Hər addımda
qaya olsa, daş olsa,
Çəkindirməz—
bitməyən savaş olsa,
Sınaq billəm —
mən yoruldum demərəm,
Şaxtalarda
mən qovruldum demərəm!
Heç bir zaman
mən bu yoldan dönmərəm,
Çünki bu yol
haqq yoludur, Uludur!
Heydər yolu
ulolardan Uludur!





## KÖNLÜMÜN SƏSİNDƏN HEÇ VAXT DOYMADIM

*HEYDƏR ƏLİYEV həyatını, ömrünü dilimiz, dinimiz, torpağımız, bayrağımız uğrunda mübarizəyə həsr edir.*
***Mirvarid Dilbazi***

*HEYDƏR ƏLİYEV öz siyasəti ilə Azərbaycanın adını qaldırdı, dünyaya tanıtdırdı.*

***Bəxtiyar Vahabzadə***

Könlümün səsindən
heç vaxt doymadım,
Mən özüm səsimi
elə yaymadım.
Uşaqkən böyükdüm
bu aləmdə mən,
Uşaq yox, böyükdüm
öz ailəmdə mən!
Anamla, atamla
olub müsahib,
Olmuşdum çox böyük
sevgiyə sahib.
Hər an sevindirdim
qəlbən onları,

Mənimlə xoş keçdi
hər bir anları.
Ana qayğısından
heç vaxt doymadım,
Atamı ümidsiz
bir an qoymadım,
Ancaq mən
səsimi elə yaymadım.
Özüm bunu
bilə-bilə yaymadım.
Tanıdım özümü
uşaq çağımdan,
Xəbərdar olsam da
mən yazmağımdan,
Ürəyim böyükdü
yazdım oraya,
Dedim, qoy düşməsin
səsə, haraya,
Düzdüm qəlb evimə —
qızıl saraya!
Beləcə də keçdi
ömürdən anlar,
Hərdən şair qəlbim
özümü danlar.
Ancaq nə etməli,
taleyim buymuş,
Yaxşı ki, düşüncəm
qəlbimi duymuş.
Xariqə yaratmaq
istədiyimdən,





Özümün özümə
bələdliyimdən.
Könlümdə gəzdirib
bir dolu badə,
Gəzdim el içində
mehriban, sadə.
Dedim ki, bəlkə bir
tanıyan oldu,
Dedim bəlkə məni
anlayan oldu,
Kimsə tərəfindən
anılmasam da,
Atdığım addımda
yanılmasam da,
Hamını özümdən
ucada tutdum,
Sanki mən özümü
tamam unutdum.
Həmişə hamının
dadına çatdım,
Nəhayət, mən də
öz adıma çatdım!
Tanrım özü çatdı
mənim dadıma,
Verdiyim andımı
saldı yadıma.
Heydər Günəşinin
saçdığı ziya,
Gətirdi ömrümə
yeni bir dünya.

Tanrım özü verdi
bu təbi mənə,
Dedi: — Əmanətdir,
edirəm sənə!
Bu gün sən gərəksən
doğma Vətənə!
Keçməkçün həyatın
hər sınağından,
Özümə yurd seçdim,
dörd aylıq «Zindan».
Ədalətdən yazıb
bir böyük namə,
Verdim ədalətsiz
Vəkil hakimə.
Yetmədi köməyə
qohum, doğma da,
Beş il iş oxuyub,
Vəkil hakim də
İkisi iyulda,
doğum günümdə
Son söz adlı sual
qoydu önümdə,
Vardı üç mühasib
də yan-yörəmdə.
Gənclikdə baxdığım
bir Hind filmində,
«Bir tikə çörək» də
doğum günündə





Kopalın dediyi
sözləri andım,
Özümü bu günün
Kopalı sandım.
Dedim ki, azad
et, bu tifilləri,
Yolların gözləyir
ailələri.
Onlara da çatan
bütün illəri,
Topla hamısını
verginən bəri.
Bu doğum günümdə
olsun səndən pay,
Bir gün qayıdaram,
salarsan haray.
İkisin buraxdı,
birini tutdu,
Qovluğun götürüb
zalı tərk etdi.
Bu qurulmuş işdi,
bunu bilirdim,
Qol-qola qandallı
zindana getdim,
Sarıldım qələmə
vaxt itirmədən,
«Sönməz Günəş»imi
mən yazdım müdam.

Yazdıqca doymadım,
günü saymadım,
Qələmi heç zaman
yerə qoymadım.
Bir də eşitdim ki,
çəkilir adım.
Çıxdım azadlığa,
axır birtəhər,
Çünki haqqın özü
çalmışdı zəfər!
Tanrım özü sverdi
bir imdad mənə,
Özü tapşırdı ki,
yaz-yarat mənə,
Etməkçün tərənnüm
O peyğəmbərin,
Öyrətdi yazmağı
mənə çox dərin!
O, özü pay verir
ilham pərimə,
O, sözü göndərir
söz kəhərimə,
Hər bir axşamıma,
hər səhərimə,
Hər bir gəzintimə,
hər səfərimə,
Böyük nəzarət var,
yüksək qayğı var,
Yazdığım sözlərin
öz ayağı var,





Hər biri bir əsgər,
öz yarağı var!
Sönməz söz mülkümdə
öz dayağı var!
Tərənnüm etməkçün
o peyğəmbəri,
Xalqımın şöhrəti —
Ulu Heydəri,
Könlümün səsindən
heç vaxt doymadım,
Mən özüm səsimi
elə yaymadım.

## BİR ÖMRƏ NƏ QƏDƏR TARİX SIĞARMIŞ

*Günəş haqdır!*
*Haqdan doğub,*
*Doğacaqdır!*
*Zülmət geri çəkiləcək,*
*Çəkilməsə,*
*Nur zülməti*
*boğacaqır!*

***Vahid Hüseyn***

Bir ömrə nə qədər
tarix sığarmış?
Bir ömür nə qədər
alqış yığarmış?
Xalq iftixar edir
öz oğuluyla.
Xoşbəxt gələcəyə
gedən yoluyla,
Qırıb tilsimləri
polad əliylə,
Xariqə yaradıb
öz əməliylə.
Görüb keçmişini,
gələcəyini,
Göstərib xalq üçün
bitməz səyini,
Xalqının adını
cahana yayıb,





Qayğısı tükənməz
ömür yaşayıb.
«Bilsin ana torpaq,
eşitsin vətən!»
Müsəlləh əsgərtək
doğulan gündən
Bütün ömrü boyu
xalqa xidmətdən
Heç vaxt yorulmayıb,
doymayıb Heydər!
Heç vaxt xalqı yalqız
qoymayıb Heydər!
Onun qarşısında
borcun tükənməz,
Heydər Günəşindir,
heç zaman sönməz.
Daim gəzəcəksən
göylər qatında,
Çox zirvələr keçib,
Heydər adında,
O Sönməz Günəşin
qanadlarında
Qıracaqsan qəddin
qartalların da.
Uca dağlarının
yamaclarında,
Sevinc tonqalları
qalayacaqsan,
Qolunu qoluna
dolayacaqsan.

Öyün qeyrətinlə,
güvən özünə,
Qeyrət alovuyla
yanan gözünə.
Hər bir axşamına,
hər gündüzünə
Yanar çıraq olub,
şam olub Heydər!
Bu Vətən — Xalq üçün
doğulub Heydər!

***

Ən dəyərli Oğlun
ən şirin Övlad.
Hər zaman hayına
yetişən imdad,
Vüqarına baxıb
oldum qəlbi şad,
İstəyi görməkdir
Xalqı, eli şad.
Hər an ilhamımdan
umaraq imdad,
Arzu-istəyimə
qovuşub heyhat,
Xalqımı, elimi
görməkçün rahat,
Qəlbimə dağ çəkdim,
etdim narahat.





Od-alov qaladım,
çathaçat yanan,
Tonqalda
söz dolu qaynadı qazan.
Qəlbimin əliylə
dəmir əlcəkli
İlham pərim ilə
mənə gərəkli
O sözləri dartıb
sətirə yazdım,
Yazmasam, qəmimə
mən tablamazdım!
Qəlbimin özündən
özünə yazdım,
Hər nə gördümsə də,
düzünə yazdım,
Yazdıqca qəlbimdən
itdi ağrılar,
Qayıdıb yenidən
bitdi ağrılar.
Gəlsə də üstümə
düşmən, yağılar,
Qanı, iliyiylə
bəd yaraqlılar,
Yenə sönməz oldu
qəlbimdə inam,
Həsrətlik çəksə də,
doğmalar — Anam.

Mən bu həsrətə də
dözdüm, tabladım,
Qəlbimi kitabtək
mən varaqladım.
Ağrıdan dad duydum,
sevincdən qəhər,
Mən Onu, Xalqımı
sevdiyim qədər
Tərənnüm etməyə
çalışdım hər an,
Budur bu həyatım,
bu mən, bu zaman!
İçimdə qəlbimi
yandıran sözlər,
Çıxıb sətirlərə
düzülübdülər.
Dünən mənə ağrı,
bu gün düşmənə,
Olublar sönməyən
bir gülüş mənə.
Kədərdən sevincə
qədər yol gəlib,
Nə dayanmaq bilib,
nə də dincəlib,
Qaynar həyatımın
qaynar çağından,
Keçib həyatımın
hər varağından,
Doğulduğum andan,
uşaq çağımdan,





Keçib dəliqanlı
cavanlığımdan
Bu günümə qədər
yetişibdilər!
Qəlbimlə, özümlə
tam bişibdilər!
Tək özümə bəlli
olan təbimlə
Yaşadım ömrümü
öz mətləbimlə.
Nə ölüm qorxutdu,
nə qan, nə zindan,
Düşmən ürəkləri
eylədim viran,
Oxu, vətən oğlu,
oxu, məni qan!
Eldar da günəşdir,
deyil alışqan,
Yanıram xalqıma
yanan yolunda,
Həyatın özünü
qanan yolunda.
Düşmənəm! Xalqıma
qatı düşmənə,
Düşmən gülləleri
gəlməz tuş mənə!
Onu da, məni də
yaradıb Allah!
Yolumuz önündə var
parlaq sabah!

O Sönməz Günəşdir,
mən sönəcəyəm,
Ancaq hələ Ona
söykənəcəyəm!
Bir ömrə sığmayan
əməllərinə
Hələ çox əsərlər
həsr edəcəyəm.
Ən zəngin tarixi
Azərbaycanın
Onun həyatıdır
tükənməz sərvət!
Çəkib nəzərini
bütün cahanın,
Odlar Yurdumuza
etməyə diqqət.
Bir ömür nə qədər
barlı olarmış?
Bir ömrə nə qədər
tarix sığarmış?
Yenilməz qəlbiylə
çaldığı zəfər
Hər an düşmənlərin
gözün çıxarmış.
Nə yaxşı dünyada
bu gün O, varmış,
Yoxsa, xalqım
necə cılız qalarmış!
Qüdrətli bir rəssam
olsaydım əgər,





Onun qurduqların
rəsmlərə çəkər,
Üç böyük tabloda
etdirərdim əks,
Ki, diqqət eyləsin,
qoy görsün hər kəs!
Sevinən sevinsin,
qoy alsın həvəs,
Bu dövrü yaşamaq
deyildir əbəs!
Birinci tabloda
onadək olan,
İkinci tabloda
qurduqlarından,
Üçüncü tabloda
bügünkü zaman,
Hamısı Odlar Yurdu —
can Azərbaycan!
Qoy çəksin bunları
rəssam olanlar,
O rəsmin qiymətin
verər qananlar.
Mənsə sətirlərdə
çəkib rəsmini,
Bir ömrə sığmayan
hər səhifəsini
Şeir dünyamızda
yaşatmaq üçün,
Seçmişəm bu yolu
özümçün düzgün!

Qədim Azərbaycan,
bu günkü zaman,
Keçib əsrlərdən
dəyişən dövran.
Bir ömrü bir əsrə
bərabərləri,
Arayıb gördüm mən
ən zəngin insan.
Sönməz Günəşimi —
Ulu Heydəri!
Ömrü tarixlərlə
dolu Heydəri!
Sağlam həyatının
hər səhifəsi
Sönməz nəğmə kimi
azadlıq səsi.
Göylərlə yarışan
təbi, həvəsi,
Özü verib mənə
təbi, həvəsi.
Xoşbəxt gələcəkdir,
bir həyatdır, O!
Xalqıma verilmiş
ən saf addır, O!
Bir ömrə nə qədər
tarix sığarmış?
Bir ömür nə boyda
tarix olarmış?
Nə yaxşı xalqımın
Heydəri varmış!





Ən yüksək mənəvi
dəyəri varmış!
Heydər İlhamının
ilhamı varmış!
Heydər İlhamının
Heydəri varmış!
Heydər davamının
davamı varmış!
İlham Heydərinin
İlhamı varmış!
Heydər İlhamının
davamı varmış!
Xalqımın sönməyən
inamı varmış!
Tanrı millətimə
sanki pay vermiş,
Sönməz haray vermiş,
sönməz hay vermiş.
Ata da Heydərdir,
bala da Heydər!
Doğmadır doğmaya,
yada da Heydər!
Arxadır arxaya
arxada Heydər!
Heydər zirvəsinə
çata da Heydər!
Olalar bir irsdən
yüksələn dəyər.
Zirvədən-zirvəyə
yüksələn dəyər,

Xalqımı zirvəyə
səsləyən dəyər,
Heydər məktəbində
dərslənən dəyər,
Xalqın taleyiylə
səslənən dəyər.
Bir ömrə nə qədər
tarix sığarmış?
Xalqımın nə yaxşı
Heydəri varmış?
Xalqımın mənəvi
dəyəri varmış!
Xalqımın Heydəri,
Heydəri varmış!
Günəşdən doğan da
günəş olarmış.
Yurdumda ən yüksək
bir dağ ucalmış,
O dağdan dünyaya
baca da varmış,
O bütün dağlardan
ucada qalmış.
Bir ömür nə boyda
tarix olarmış?
Bir ömrə nə qədər
tarix sığarmış?





## HEYDƏR YOLU ULU YOLDUR BAŞABAŞ

*Həyatı örnəkdir - öyrənək əzbər*
*Hər bir çağırışına olaq səfərbər.*
*Ay ellər, tək bizim deyildir Heydər,*
*Qafqazın ən böyük dayağıdır O!*

İlyas Tapdıq

Heydər yolu ulu
yoldur başabaş!
Bu yollarda
sınmaz ayaq, itməz baş!
Xoşbəxtlikdir,
səadətdir başabaş!
Xalq yolundan
aman verməz çaşa baş.
Müxalifət
Söyləməkdə – ay şabaş!..
Adətkardır,
ha dəysə də daşa baş!
Olmaq üçün
xalqı ilə başabaş,
Ağıl varsa
nə pul gərək, nə şabaş!
Ağıl üçün
möhtac deyil yaşa baş!
Xalq içində
varı ikən Arxa — Baş,
Vur yolunda
ömrü başa, başabaş!

Yolun varmı
daha başqa, a qardaş,
Xalq yolunda
olmalıyıq silahdaş!
Haqq yolunda
olmalıyıq silahdaş!
Sülh yolunda
olmalıyıq silahdaş!
Ulu Heydər uğurunda
olmalıyıq silahdaş!
Onun hər bir cığırında
olmalıyıq silahdaş!
Sönməz Günəş
gələcəkdir, a qardaş!
Tariximiz
dönəcəkdir, a qardaş!
Yazdıqlarım
tam gerçəkdir, a qardaş!
Xalqa yalnız
O gərəkdir, a qardaş!
Ulu xalqım, dur!
Bu yolda qardaşlaş.
Gərəyindir! —
Ulu rəhbər, işlək Baş!
Qoyma girə
meydanına kələk baş,
Tək ürəkdir, həm də
polad bilək! — Baş!





Sönməz Günəş —
sadiq Öndər, Arxadaş!
Arxasında
durmalıyıq başabaş!
Gözəl Dövlət
qurmalıyıq başabaş!
Düşmən qəddin
qırmalıyıq başabaş!
Qurtarmaqçün
oyunbazla başabaş,
Ağıl varsa,
nə pul lazım, nə şabaş!
Biz bu yolda
durmalıyıq başabaş!
Torpaqları
almalıyıq başabaş!
Özümüztək
olmalıyıq başabaş!
Dur! Ey Xalqım!
dur ayağa başabaş!,
Meydanlara
özün göndər bir şabaş!
Bitsin oyun
meydanlarda başabaş!
Küçə, meydan
boşaldılsın başabaş!
Bəd dalınca
daş atılsın, qara daş!
Yolu düz tut,
qoyma itə daha baş,
Yoxsa batar
dözülməz günaha baş!

Düçar olar
naləyə baş, aha baş!
Dərin düşün,
səhv eyləmə daha, baş!
Sən ağılsan
başdanbaşa,baş, a baş!
Yazıb yarat
bütün ömrü başabaş!
Xalqı oyat
başdanbaşa, baş, a baş,
Eylə dəvət
xoşbəxt yola başabaş!
Qıyma düşə
qalmaqala başabaş!
Yazıb yarat
haqq yolunda, başabaş!
Xalq içində
varın ikən Arxadaş,
Get yoluyla
bütün ömrü başabaş!
Təmiz yaşa,
məğrur yaşa başabaş!
Gələcəyə
et tamaşa başabaş!
Sönməz Günəş!
Öndərdir, həm Arxadaş!
Gedir yolu
xoşbəxtliyə düz birbaş!
Yorulmadan
get bu yolla başabaş!





## MƏN BULUDA DÖNDÜM,
## QƏLƏM AĞLADI

*Gəlin qurğuşundan tökək şeri biz,*
*Hər sözün siqləti dönsün bir tona...*

***Səməd Vurğun***

Yenə buludlaşdım,
doldu təbim də,
Yenə dincəlməyir
qələm əlimdə.
Yenə söz camıma
calanıb sözlər.
Təbim o sözləri
necə əzizlər,
Seçilsinlər deyə
baldan ləzizlər,
İlham pərim özü
boşaldır camı,
Boşaltdıqca dolur,
boş qalmır camı,
Bu minvalla keçən
hər an, günüm də,
Qızıl zamanlarım,
mənim ömrümdə.
Qoy hələ gözləsin
məni ölüm də,
Bitməmiş əsər var
mənim önümdə!

Məni axtaranlar
hələ tapmasın,
Doğmalar da məndən
incik qalmasın,
Çox ümdə bir borc var
önümdə mənim,
O borcu gözləyir,
Yurdum, Vətənim!
Bu «Sönməz Günəş»im! —
bu şah əsərim
Tanrıdan əmanət
edilən əsər,
Qəlbimin özünə
yazılan əsər,
Orda sətir-sətir
düzülən əsər!
Bircə sətirini
saxlasam əgər,
Qəlbimin hər küncün,
bucağın sökər!
Ağacların xəzəl
yarpağın tökər!
O xəzəl sözlərlə
dolan qəlbimin,
Yükünə tablamaz
gücü gəminin.
O, əllərdə gəzən
yüklərdən deyil,





Gəmilərdə üzən
yüklərdən deyil!
O elə bir vardır,
elə dövlətdir,
Tükənməzlik onda
sanki adətdir!
O söz mülkü kimi
bir səadətdir!
Orda ədəb-ərkan,
qeyrət qorunur,
Orda sözlər var ki,
biri bir tondur!
Orda sözlər var ki,
sanki atomdur!
Ondan da güclüsün
demirəm hələ,
Düşmənlər tez edər
üstümə həmlə.
Hamı gəlsin deyə
əqlə, kəmala,
Həb dolu söz camın
boşaldıram mən.
Hələ düşmənlərə
daş atmıram mən.
Üzümü tutmuşam
xalqıma tərəf,
Bölünüb olmasın
qoy tərəf-tərəf,

Qoy alsın dərsini
hər bir bişərəf,
Dönsün millətinə,
xalqına tərəf.
Düşmənə dost deyən,
xalqına hədəf,
Özü olacaqdır
mənimçün hədəf!
Xalqımdan ayrılan
tərəf-tərəflər,
Düşmənlə birləşən
düşmən hədəflər,
Yetişirəm artıq
əlimdə dəftər!





## VURĞUNAM, VURĞUNUN ÖZÜNDƏN VURĞUN

Vurğunam, Vurğunun
özündən vurğun!
Dolğunam, buludun
özündən dolğun!
Dalğınam, dağların
qəlbiliyində,
Sərvətəm, toplanmış
qan, iliyimdə!
Uşaq aləmimdə,
həm gəncliyimdə
Dönüb hərdən-hərdən,
yaşayan dalğın,
Gəncliyin özünə
oxşayan dalğın,
Dönüb körpəliyi
oxşayan dalğın.
Qəlbimdə kök salmış
təpənin, dağın,
Qəlbimdə kök salmış
aran, yaylağın,
Fikri qayasından
seyr edən dalğın.
Murovun seyrində
olmasam da mən,

O da heç yox olmur,
itmir sinəmdən.
Nə onu dolanıb
gəzə bilmirəm,
Nə də ağrısına
dözə bilmirəm.
Şuşa, Laçın,
bütövlükdə Qarabağ,
Sanki olub
sinəmboyu yara, dağ!
Sinəmdə
qaynayır İsa bulağı,
Cıdır düzü
olub fikir yaylağı.
Gədələr başına
saldı yaylığı,
Döyüş bölgəsində
hər ucalığı
Özü girov verdi
qorxaq dığaya,
Ruhların fəryadı
yüksəlib Aya,
Bu meydan sulayan
quldurbaşılar,
Vəzifə düşgünü,
qanmaz, naşılar,
Siyasət aşbazı,
bu kürdaşılar,
Bu dırnaqarası
«ölməz kişilər»,





Deyirəm ki, bəlkə
kişiləşələr.
Bitə meydanlarda
bu sulaşmalar,
İtə meydanlardan
bu ulaşmalar.
Qurbağa gölünə
atıla daşlar,
Bitə orda-burda
quruldaşmalar.
Bəsdir xalq içindən
düşmənə meyil,
Siyasət — kəndirbaz
meydanı deyil.
Kəndirsiz meydandan
asılanlara,
Xalqın taleyilə
pəs olanlara,
Vallah, daha bəsdir,
Bəs, olanlara!
Ulduzları göydə
sayrışan xalqın,
Elləri barışa
çağıran xalqın,
Yurdunda barışıq
yaranmır niyə?
Kimlərsə küsməkdən
doyammır niyə?
Bəşəri gedişlər
zarafat deyil!

Küskün yaşamaq da
bir həyat deyil!
Var-dövlət içində
zaman da gördüm,
Layiq olmasam da,
zindan da gördüm,
Zindan içərisində
insan da gördüm,
İnsan libasında
heyvan da gördüm.
İranlı, hindlini,
türkü də gördüm,
Kişi libasında
tülkü də gördüm!
Hər kəsin qəlbinin
özünü gördüm,
Orda yaşatdığı
arzunu gördüm!
Kimiyə söylədim —
gözündə qalsın,
Kimiyə söylədim —
arzuya çatsın.
Qəlbimdən tanrıya
pıçıltı ilə,
İçimdə çəkdiyim
hıçqırtı ilə
Acı taleyinə
yandım bu xalqın,
Yeri səhv düşdükcə
haqla nahaqqın,





Qələmim qılınca
dönsə də hərdən,
Qan tökmədən döndüm
mən bu səfərdən.
Bu bir tale yolum,
bu bir səyahət,
Arzumdur xalqıma
olmasın adət.
Qayıdaq, bir olaq,
hamı birləşək,
Bu gün gələcəyə
düzgün şum əkək.
Orda bar verəcək
toxumlar əkək,
Bu xalqın, millətin
qeyrətin çəkək.
Hünər meydanında
qeyrətlə duraq,
Düşmənə zərbəni
bir əllə vuraq.
İnsan yoğurmayaq,
xəmir yoğuraq,
Hər bir qaranlığa
işıq doğuraq!
Qoy təndir qalasın
ana, bacılar,
Ora çörək yapsın
qoy yapmacılar.
Ürəkləri təndir
olmasın daha,

Aparaq bu xalqı
gözəl sabaha.
Gəlin səhv salmayaq
doşabla balı,
Gözləri örtməsin
dünyanın ləli.
Ondan qiymətlisi
mənəviyyatdır,
Ondan da doğulan
saf, təmiz addır.
Onsuz keçən həyat,
yəni həyatdır?!
Natəmiz yaşamaq
ölümdən betər,
Bir ölüm bu ömrün
mininə yetər.
Həyatın mənası
yaşamaqdasa,
Şərəfli ölüm var,
ondan ucada,
Onu dəyişmərəm
qızıl taca da!
Odur ki, ömrümdən
zaman ayırıb,
Ürəyimi yarıb,
qəlbimi yarıb.
Mənəvi xəzinəm,
öz söz mülkümdən,
Qəlbimin özünün
haqlı hökmündən





Bir qərardat yazdım
xoşbəxtlik adlı.
Söz mülkümdən seçib
sözləri dadlı,
Ömrümün bu qızıl
anından sizə,
Xalqın övladları —
hər birinizə.
Allahın yerdəki
elçisi kimi,
Xoşbəxt gələcəyin
carçısı kimi
Xoşbəxt arzularla
yaşanan ömür,
Tale kürsüsündə
daşınan ömür
Diləyə-diləyə
yazdım, doymadım,
Hələ mən yazıma
nöqtə qoymadım!

## EPİLOQ

Bir ömür bağında
min çiçək açdı,
Hər biri gözəllik,
bir çilçıraqdı.
Şəfəq nuru
yer üzünü boyadı,
Möcüzədi, sanki
bu bir röyadı.
Mənalı ömrünün
fəsillərində
Gözü qalıb sanki
fəsillərin də
Xariqələr dolu
hər illərində!
Qələmə sarılsa
bütün yazarlar,
Bitməz qalaq-qalaq
əsər yazsalar.
Cəmi bu ümmanın
yarısı deyil,
Ha yazsan, sonuna
çatası deyil.
O elə tarixdi,
bitəsi deyil,
O özü tarixdi,
itəsi deyil.
Düşüncəm dənizdə
sanki qağayı,





Hey üzür, çırpınır
onun sayağı.
Qələmim doldurur
sonsuz varağı,
Sözləri hey seçir
ömrün darağı.
Heydər həyatının
hər bir varağı
Sönsuz əsər kimi
söz-söz qalanır.
Ürəyimdən qopub
sətrə calanır,
Önümdə sonu yox
kitab canlanır!..

*RƏYLƏR*

# XALQ MƏHƏBBƏTİNİN TƏNTƏNƏSİ

Azərbaycan içtimaiyyətində baş verən görkəmli hadisələrdən biri də Azərbaycan Respublikasının sevimli prezidenti, dünyaşöhrətli dövlət rəhbəri, böyük qurucu, böyük yaradıcı, nadir natiq, nadir hafizə sahibi, dövlət və layihələşdirmə təfəkkürü ilə, respublikada dövlətçilik, idarəçilik fəaliyyəti ilə Azərbaycan tarixində görkəmli rəhbərlərdən və simalardan kəskin şəkildə fərqlənən ulu öndər Heydər Əliyevin şəxsiyyəti ətrafında yaranan Heydər Əliyev mövzusunun ədəbi hərəkata çevrilməsidir.

Bu ədəbi hərəkatı orta məktəb şagirlərindən tutmuş, xalq şairləri, xalq sənətkarları, bir çox jurnalistlər, publisistlər, alimlər, hətta xarici ölkələrdə yaşayıb-yaradan bir çox sənətkarlarımız da müşayiət edirlər.

Öz liderini sevən, onu böyük məhəbbətlə, ürəkdən gələn böyük çağırışla tərənnüm etmək məqsədilə öz sənət əsərini ona həsr edən şairlər, yazıçılar, uca tribunalardan sevimli rəhbərinə səmimi ürək sözlərini bəyan edən alimlər, mədəni, içtimai-siyasi xadimlər Heydər Əliyev mövzusunda yaranan, yazılan, səslənən əsərləri get-gedə genişləndirirlər.

Sual oluna bilər, Azərbaycan içtimaiyyətində baş verən bu ədəbi-mədəni hərakatın dayaqları haradandır? Bunu hamı bilir ki, bu hərakat 40 ildən çox özünün ömrünü böyük fədakarlıqla Azərbaycan xalqının və Azərbaycan Respublikasının mədəniyyətinin, iqtisadiyyatının, kənd təsərrüfatının, elm, ədəbiyyat və incəsənətinin inkişafına, tərəqqisinə həsr edən Heydər Əliyevin gərgin dövlətçilik, idarəçilik, quruculuq, yaradıcılıq fəaliyyətinin zəruri nəticəsidir. Öz mənalı həyatını xalq yolunda fəda edən rəhbəri, ağsaqqalı, prezidenti xalq sevir, onun bütün çağırışlarına səs vermişdir.

Bir-neçə tarixi mərhələlərdə baş verən və tarixən formalaşan, xalqın mənəvi dayağına çevrilən bu proses xalqı təmsil edən yaradıcı qüvvələrin müraciət edtiyi «Heydər Əliyev» mövzusunun artıq ədəbi-mədəni hərakata çevrilməsini zəruriləşdirmişdir.

Azərbaycan xalqının həyatında bu ədəbi-mədəni hərakat öz yeniliyi, həm də kütləviliyi ilə ədəbiyyat və sənət dünyamızda böyük maraq doğurmaqdadır.

Mənim bir çox sənət, qələm dostlarım da bu hərakatın öncülləridirlər. Qələm və sənət dostum Eldar Əliyev də qələmə aldığı "Sönməz Günəş" poemasıyla bu elm, sənət, ədəbiyyat hərakatına böyük cəsarət, poetik şəhamətlə qoşulduğu üçün öz xalqı, rəhbəri, Respublikasını sevgi ilə yoğrulmuş poetik arzu və ümidlərilə, özünəməxsus səmimi şeir, poetik təfəkkürü ilə, qüdrətli istedadı ilə bu hərəkatın oxucu auditoriyasını sevindirmişdir.

Söz və saz sənəti ilə məşğul olan görkəmli sənətkar «Heydər Əliyev» mövzusunda yazdığı iri həcmli "Sönməz Günəş" poeması ilə xalq vətənpərvərliyinin üfüqlərinin, geniş və tükənməz yaradıcılıq patetikası ilə çırpınan bir ürəyin Böyük rəhbərə olan böyük məhəbbətinin geniş imkanlarını sübut etməkdədir. Şair əsər boyu, yeri gəldikcə, dünyəvi, bəşəri mövzuda yazdığı şeirlərini də oxucuya təqdim edir. Bu kimi lirik ricətlərilə o, dünyanın qlobal məsələlərinə də

müdaxilə etmək və oradan nikbin nəticələr çıxarmaqla, poemanın ümumi süjet xəttinə orjinallıq gətirmişdir.

Poetik axtarışlarla, poetik deyimlərlə müxtəlif şe'r ölçülərində yazılan poema şair ürəyinin çırpıntıları, xalq məhəbbətinin təntənəsinin tərənnümü, xalqın bugünkü problemlərinə göstərdiyi poetik münasibətlərlə əsər bir sıra gözəl xüsusiyyətlər kəsb etmişdir.

**Söhrab Tahir**
*xalq şairi*





# ONUN İDEALI

May ayının ortalarında «Azərbaycan» nəşriyyatına gələrkən əvvəllər rabitə işçisi kimi tanıdığım Eldar Əliyevlə görüşdüm.

Bu təsadüfi görüşdə mənə «Sönməz günəş» və «Həyat kitabımdan sətirlər» adlı iki kitabını bağışladı. Bu vaxta qədər onun şeir yazdığını bilmirdim. Lakin Aşıq Ələsgərin yubileyində, ədəbi məclislərdə iştirak etməsindən ədəbiyyata, şeirə-sənətə, sözə böyük rəğbəti olmasını hiss edirdim. Kitablarını vərəqləyəndə şeirlərinin son 20 ildə yazılmasını qət etdim.

Eldar ziyalı ailədə, zəngin folklor qaynağı olan Ağbaba diyarında böyümüş, el aşıqlarının nağıl və dastanlarını dinləmişdir. Onun kiçik şeirləri müasir şeirimizin formasında yazılmışdır. Lakin ölkəmizin prezidenti haqqında yazdığı əsər əsasən məsnəvi üslubunda yazılmış, əsər müəllifin diliylə nəql edilir. Xalq dastanlarını çox dinləmiş Eldar öz qəhrəmanının həyatını bir dastan kimi yazmağa başlamışdır.

«Ensiklopediya» nəşriyyatı tərəfindən çapdan çıxmış «Sönməz Günəş» poemasına Yazıçılar Birliyinin üzvü, yazıçı-publisist, dissertasiyasını Azərbaycanın xalq şairi Rəsul Rzanın yaradıcılığı mövzusunda işləmiş filologiya elmləri doktoru Bağır Bağırov yazdığı müqəddimədə ətraflı və yerində şərh verilmişdir.

Əsərin ikinci hissəsini müəllif artıq tamamlamış və öz qəhrəmanının keşməkeşli həyat yolunu obrazlı şəkildə yüksək səviyyədə tərənnüm edib, vətəni, xalqı, zamanı üçün bütün həyatı boyu mübarizələrdə tanınmış insan haqqında düşüncələrini qələmə almışdır. Xalqın tanıdığı, sevdiyi və bütün dünyada tanınan şəxsiyyət haqqında mənzum əsər-dastan yazmaq, əlbəttə, asan iş deyildir. Bu işin öhdəsindən gəlmək üçün müəllifin həvəsi, səbri, istedadı imkan verir,

deyim ki, Eldar Əliyev şərəfli və məsuliyyətli işini ürəklə davam etdirəcək, bütün qüvvəsini sərf edib layiqli bir əsər yaradacaqdır. Bu yolda istedadlı dostum, humanist və vətənpərvər Eldar Əliyevə ürəkdən minnətdarlığımı bildirir, uğurlar arzu edirəm. Ona məsləhət bilirəm ki, əsər üzərində nə qədər yuxusuz gecələr keçirsə, onun sabahı, gələcəyi o qədər sevincli, bəhrəli olacaqdır.

Az zamanda yazılmış əsərin şübhəsiz bəzi xırda-para düzəlişlərə də ehtiyacı ola bilər. İnanıram ki, Eldar bunların da öhtəsindən həvəslə, hünərlə gələcəkdir.

Son olaraq onu qeyd edə bilərəm ki, müəllifin bu əsəri oxucularını sevindirəcək və Heydər Əliyevin keçdiyi mürəkkəb, mübarizələrlə dolu həyatını öyrənməkdə onların köməyinə çatacaq, stolüstü kitabına çevriləcəkdir.

**İlyas Tapdıq,**
***AYB üzvü, şair***





# AĞSAQQAL SÖZÜ

Azərbaycan xalqının böyük oğlu, dövrümüzün dahisi Heydər Əliyev həqiqi ümumxalq məhəbbəti qazanmışdır. Hər kəs bacarığı, imkanı daxilində ona öz məhəbbətini izhar etməyə çalışır, ürəyindən gələnləri demək istəyir. Şair şeiri ilə, nasir hekayə və povesti ilə, alim və jurnalist öz elmi və publisistikası ilə qəlbini açır. Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti, dövlətçilik strategiyası, daxili və xarici siyasətinin məzmunu və əhatəsi o qədər genişdir ki, onu kitablara sığışdırmaq üçün illərlə tədqiqatlar, gərgin yaradıcı əmək lazımdır. Heydər Əliyevin elmimiz, ədəbiyyatımız, mədəniyyətimiz sayəsindəki əməyi də ölçüyə gəlmir. Onun ayrı-ayrı yaradıcılıq sahəsindəki fəaliyyəti haqqında çox qiymətli ədəbi-bədii, publisistik əsərlər yazılıb və belə əsərlər yazılmağında davam edir.

Heydər Əliyev dahi siyasət adamı olmaqla bərabər, əlçatmaz bir şəxsiyyətdir. Adı böyük hərflərlə yazılan bir şəxsiyyət. Bir dövlət xadimi, bir siyasətçi, respublikamızın rəhbəri kimi ölkənin və dünyanın siyasət aləmində həlledici rol oynadığı dünya siyasətinə istiqamət verir. Böyük beynəlxalq tiribunalardan onu dinləyir, ona qulaq asır, onun obyektiv, məntiqli nitqlərindən təsirlənmişlər. Heydər Əliyev şəxsiyyəti uzun illərin kollektiv araşdırması üçün ilham mənbəyidir.

Haqqında qısa rəy yazdığım bu kitabın müəllifi Eldar Əliyev də bu mənbədən mayalanmış və qəlbinin səsi ilə «Sönməz Günəş» poemasını yazmışdır. Poemanın birinci hissəsi çap olunmuşdur. Oxucuların mütaliəsinə təqdim olunan bu hissə – ikinci hissə adlanmaqla, birincinin davamıdır.

Mən poemanın birinci hissəsini də oxumuşam. Müəllif poemanın bu hissəsi ilə də məni valeh elədi. Mən arabir ədəbi tənqidlə, ədəbiyyatşünaslıq problemləri ilə də

məşğul olsam da, yazdıqlarım həvəskar səviyyəsindən yuxarı qalxmır. Aydın məsələdir ki, belə əsərlərin bədii dəyəri haqqında da mötəbər söz demək çətindir. Eldar Əliyevin «Sönməz Günəş» poemasına gəldikdə isə yüksək həvəs, istək və ürəkdən gələn sonsuz səmimiyyətlə yazılmış əsərində dövrümüzə, xalqımıza, azad ölkəmizə açıq-aydın vətəndaş münasibəti bu çətinliyi tamamilə aradan qaldırır. Müasir gəncliyin belə əhval - ruhiyyədə olması olduqca əhəmiyyətlidir. Onu da qeyd etməyi lazım bilirəm ki, Eldar Əliyev mövzunun məsuliyyətini də başa düşür. Başa düşür ki, çox çətin, lakin şərəfli bir mövzuda əsər yazır. Bunun üçün çox çalışmaq, çox düşünmək, qəhrəmanının fəaliyyətini hər an izləmək və çox oxumaq lazımdır. Bu mövzuda yazılan əsər öz büllurluğu, şəffaflığı ilə seçilməlidir. Belə əsərdə sözlər elə seçilməlidir ki, orada qulağa ağır gələn bir dənə də kəlmə olmasın.

Eldar Əliyev layiqli arzularla yaşayıb-yaradır və onun «Sönməz Günəş» poeması bu arzuların ifadəsi olmaqla, təqdirəlayiq, çox oxunaqlı, monumental bir əsərdir.

Bu yolda Eldar Əliyevə uğurlar arzu edirəm və oxucularını əmin edirəm ki, onun yaradıcılıq potensialı bizə poemanın növbəti hissələrini də oxumaq imkanı verəcəkdir.

**Yusif Seyidov**
***filologiya elmləri doktoru, professor***





# SÖZ ÜRƏKDƏN GƏLƏNDƏ...

Eldar Paşa oğlunun «Sönməz Günəş» poemasının II hissəsini də bir nəfəsə oxüdüm.

Poemanın fəsilləri bitkin əhvalatlar silsiləsini xatırladır və «Sönməz Günəş» Heydər Əliyev dühasını müxtəlif istiqamətlərdən işıqlandırır.

Poemada bəzən bircə misra, bircə beyt, bəzən də bircə bənd oxucu gözləri qarşısında tam mənzərə canlandırır, həmin deyimlər adamı gah sarsıdır, gah həyacanlandırır, qəzəbləndirir, isidir. Bir necə nümunəyə diqqət edək:

Hər zaman Heydərlə bir olacağıq!

*

Özün də ulusan, yolun da ulu.

*

Varım da var, xəzinəm də, al, oxu,
Sənə düşmən ürəklərə çal oxu!..

*

Şuşa, Laçın, bütövlükdə Qarabağ,
Sanki olub sinəm boyu yara, dağ!..

Məncə, bu misralar ona görə qəlbə yol tapıb ki, şair nədən və kimdən yazdığını bilir, qəlbinin döyüntüsünə qulaq asır. Bir də həmin misralar şair–vətəndaşın qəlbinin dərinliyindən gəlir, ürəkdən su içir.

Şair zəhmətindən, poemanın redaktə elədiyim əlimdəki hissəsinin də məziyyətlərindən çox danışmaq olar. Məncə, deyilənlər də, verilən nümunələr də kifayət edər.

**Bağır Bağırov**
***filologiya elmləri doktoru, professor.***

## ONUN İSTEDADINA BƏLƏDƏM

Bəri başdan etiraf edim ki, mən nə ədəbiyyatşünas, nə yazıçı, nə də şair deyiləm. Mən aqrar təhsil və aqrar elm mütəxəssisiyəm. Lakin uzun muddət ünsiyyətdə olduğum, yaxından müşahidə etdiyim Eldar Əliyevi həmişə fəal həyat mövqeyində dayanan, regionda ictimai-siyasi və təşkilati tədbirlərdə öndə gedən ziyalı kimi tanıyıram.

Eyni zamanda Eldar Əliyevin şerlərini, şerlər toplusu kitabını və «Sönməz Günəş» poemasını diqqətlə oxumuşam və istedadına bələdəm.

Müəllifin «Həyat kitabından sətirlər» əsərində doğma vətənə, müqəddəs yurd yerlərinə məhəbbət və Respublikanın Prezidenti Heydər Əliyevə sonsuz inam və sədaqət hissi qabarıq formada verilmişdir. Eldar Əliyevin «Sönməz Günəş» poemasında Prezidentin ictimai-siyasi və dövlət xadimi, fenomen şəxsiyyət olan Heydər Əliyevə sonsuz məhəbbət hisslərinin onda hələ gənclikdən baş qaldırdığı görünür. Eldar Əliyevin poemasının qəhrəmanı yalnız bir şəxsin təfəkküründə yox, ümummilli qəhrəman kimi xalqın arzusu, inamı, güvənc yeri kimi təsvir olunur ki, bu da «Xalq — Heydər, Heydər — Xalq» şüarını poetik tamamlayır.

Poemanı oxuduqda aydın olur ki, Eldar Əliyev hələ tələbəlik illərindən başlayaraq bu günə kimi ölkə rəhbərinin əsl mənada vurğunu olub, onun fəaliyyətini izləyib, göstərişlərinin həyata keçirilməsində iştirakçı olub və fəal təbliğatçı mövqeyində durubdur. Ümumiyyətlə, poemanın geniş oxucu kütləsinin stolüstü kitabı olacağına şübhə etmirəm və müəllifə öz yaradıcılıq fəaliyyətində uğurlar diləyirəm.



**M.İ.Cəfərov,**
*Azərbaycan Ziyalılar Cəmiyyətinin keçmiş prezidenti, akademik*





## MÜƏLLİFİN ÖMÜRLÜYUNDƏN



Əliyev *Eldar (Sərtqaya) Paşa oğlu 02 iyul 1956-cı ildə Qərbi Azərbaycanın (indiki Ermənistan) Amasiya rayonunun Sultanabad kəndində müəllim ailəsində anadan olmuşdur. 1973-cü ildə Amasiya rayonu Təpəkənd kənd orta məktəbini, 1979-cu ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet) "Elektrotexnika" fakültəsini bitirmişdir.*

*1979-cu ilin 12 noyabrından Azərbaycan Respublikası Rabitə Nazirliyinin təyinatı ilə Daşkəsən rayonu 6 nömrəli Xətti-Texniki Sahədə mühəndis kimi fəaliyyətə başlamış, sonralar həmin sahənin rəisi, Gəncə şəhər 2 nömrəli İstismar-Texniki Rabitə Qovşağında böyük mühəndis, Gəncə Rabitə İstehsalat Birliyində "Elektrik Rabitəsi" və "Poçt Rabitəsi" şöbələrinin rəisi, Ханлар paйон Rabitə Qovşağının rəisi,, Samux rayon Rabitə Qovşağının rəisi, Samux Rayon Poçtamtının rəisi kimi vəzifələrdə çalışmışdır.*

*2001-ci ildə "Həyat kitabımdan sətirlər", 2002 – 2003-cü ildə beş hissədən ibarət "Sönməz Günəş" poe-*

***ması (beş cildliyi) və "Ağbabada izim qaldı" şeir kitabları çapdan çıxmışdır. Hazırda Gəncə şəhərində yaşayır.***

***Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin Gəncə şəhəri üzrə təmsilçisidir.***

***"Yunan-Roma" güləşi üzrə idman ustasıdır.***

***Ailəlidir, üç övladı var.***





# Mündəricat


Proloq ........ 3
Uçan xəyallar ........ 5
Qəlb evimdə vəlvələ var ........ 7
10 may — Heydər günəşinin doğum günündə ........ 9
Dünyaya yenilik gətirəcəyəm ........ 15
Tarixin özündə möcüzələr var ........ 20
Sabahını görən sabahım ........ 26
Körpələr böyüdü, mən körpələşdim ........ 35
Göyər sətirlərim, göyər danışım ........ 44
Qanlı yanvar ........ 51
Elə bil güzgüdü, aynadı sözlər ........ 86
Müqəddəs torpağa, vətənə dönüş ........ 92
Bu xalqın dərdini çəkməmək olmur ........ 103
Qəlbim dərin quyu, mən bir səngərəm ........ 110
Tanrı ağrı verdi, mən məlhəm sandım ........ 118
Sözlərin özündən qopa bilmirəm ........ 124
Hərəkatdan doğan qara fəlakət ........ 135
Sinəmdən bir durna qatarı keçdi ........ 148
Başımın üstündə sönməz günəşim,
Nizami irsindən doğan günəşəm ........ 157
Sinəmdə çay axır, sellər oynayır ........ 164
Könlümün səsindən heç vaxt doymadım ........ 167
Bir ömrə nə qədər tarix sığarmış ........ 174

Heydər yolu ulu yoldur başabaş ............................ 185
Mən buluda döndüm, qələm ağladı ........................ 189
Vurğunam, vurğunun özündən vurğun ................. 193
Epiloq ......................................................................... 200

***RƏYƏLƏR***

Xalq məhəbbətinin təntənəsi.................................. 202
Onun idealı ................................................................ 205
Ağsaqqal sözü ........................................................... 207
Söz ürəkdən gələndə................................................. 209
Onun istedadına bələdəm......................................... 210
Müəllifin ömürlüyündən .......................................... 211



**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Tural Əhmədov**
*Səhifələyici:* **Vüsalə Mirzəyeva**
*Montajçı:* **Rasim Hacıyev**
*Operator çapçı:* **Elşad Hacıyev**

Yığılmağa verilmiş **05.06.2010.**
Çapa imzalanmış 09.09.**2010.**
Şərti çap vərəqi 13,5. Sifariş **№.498**
Kağız formatı **84x108 1/16.** Tiraj **500.**

Kitab «**Elm və Təhsil**» nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.



Ar 2010/1507

857